Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# Bakı Dövlət Universitetinin Qazax Filialının

## Akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının

## YEKUN HESABATI

**2023-cü il**
**AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ**

**Komissiyanın sədri:** Həbib Adil oğlu Mirzəyev, Azərbaycan Texniki Universiteti, Humanitar fənlər kafedrasının müdiri, fil.ü.f.d., dosent.

**Üzvlər:**
1. Leyla Xudadat qızı Əliyeva, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tədris texnologiyaları şöbəsinin müdiri, p.ü.f.d., dosent;
2. Üzeyir Ələmşah oğlu Zeynalov, Mingəçevir Dövlət Universiteti, Tədris şöbəsinin müdiri, f.ü.f.d.;
3. Nizami Şakir oğlu Əsədov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Keyfiyyət təminatı və strateji planlama departamentinin müdiri, i.ü.f.d.;
4. Səminə Sabir qızı Abdullayeva, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi, p.ü.f.d.

## Mündəricat

**Giriş** .......................................................................................................... 4
**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlbumatlar** ................................................ 4
**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri** ...................................... 5
**Qiymətləndirmənin icmalı** ............................................................................................ 5
**1. STRATEJİ İNKİŞAF** ....................................................................................... 6
**2. KEYFİYYƏT TƏMİNATI** ................................................................................ 10
**3.TƏLİM VƏ TƏDRİS** ...................................................................................... 14
**4. ELMİ TƏDQİQAT** .......................................................................................... 34
**5. İDARƏETMƏ SİSTEMİ** .................................................................................. 46
**6. İNFRASTRUKTUR** .......................................................................................... 55
**7. BEYNƏLMİLƏLLƏŞMƏ** ................................................................................. 57
**Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** ....... Error! Bookmark not defined.
**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri** ..................... 71
**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi** ... 71

## Giriş

### Qiymətləndirilən təhsil müəssisəsinə dair məlbumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Bakı Dövlət Universitetinin Qazax Filialı |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | - |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | - |
| Təhsil müəssisəsinin məsul şəxsi | Rüstəmov Arif Sədi oğlu |
| Fakültələrin sayı | 1 |
| Kafedraların sayı | 4 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 17 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 7 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | - |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı 1875<br>Bakalavriat:1852<br>Magistratura:23<br>Doktorantura: - 0<br>Elmlər doktorluğu proqramı üzrə: - 0 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 69 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 113 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | bdu.qazax@inbox.ru, (02229)-5-26-02 |
| Müəssisənin hüquqi ünvanı | AZ 3500, Qazax şəhəri, H.Əliyev pr-150 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri

### Qiymətləndirmənin icmalı

Bakı Dövlət Universitetinin Qazax FilialıTəhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) 14.11.2022-ci il tarixli, F-181 nömrəli  əmri ilə təsdiqlənmiş metodologiyaya əsasən qiymətləndirilmişdir.  Qiymətləndirmənin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin akkreditasiyasına dair Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. Uyğun olaraq, 2022-ci il 19 oktyabr tarixindən etibarən 3 ay müddətində filial tərəfindən Özünütəhlil Hesabatı hazırlanmış, 2023-cü ilin 22 – 25 may tarixlərində Komissiyanın müəssisəyə səfər həyata keçirilmişdir. Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1. STRATEJİ İNKİŞAF

*1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

### 1.1.1. ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Strateji inkişaf planı (bundan sonra - SİP) 2022-2030-cu illəri əhatə etməklə yaxın 9 il üçün Filialın inkişaf strategiyasını özündə əks etdirmişdir. Təqdim edilən SİP-in Bakı Dövlət Universitetinin 2022-2030-cu illər üçün SİP-in elm və təhsil üzrə əsas prioritetlərni nəzərə almaqla hazırlandığı bildirilmişdir. Plan aşağıda qeyd olunan əsas fəaliyyət istiqamətlərini əhatə edir: davamlı akademik inkişaf; elm və innovasiyalar sahəsində gələcəyə baxış və mütəmadi olaraq yenilənən hədəflər, daim təkmilləşdirilən, qısa və uzunmüddətli sosiallıq.

SİP Filialda tədrisin və elmi fəaliyyətin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi, qlobal elm-təhsil məkanına daha sıx inteqrasiya, yüksəkixtisaslı insan kapitalına olan tələbatın ödənilməsi, habelə ali təhsilin müasir dövrün tələblərinə uyğunlaşdırılması mexanizmlərini özündə əks etdirir.

### 1.1.2.ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

SİP-də Filialın missiyası göstərilməmişdir.

### 1.1.3.SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

SİP-də qoyulan hədəflər əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə ümumən uyğundur.

Ancaq SİP-in hazırlanmasında əmək bazarının nümayəndələrinin, maraqlı tərəflərin iştirak etməməsi strateji baxışın əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə dair fikir bildirməyə imkan vermir.

### 1.1.4. SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

SİP-də 4 əsas istiqamət müəyyənləşdirilmişdir: Təhsil, Elmi-tədqiqat, İnnovasiyalar, Sosiallıq. Hər bir istiqamət üzrə hədəflər təyin edilmişdir. Təhsil istiqaməti üzrə əsas hədəf Filialda tədris-təlim, elmi tədqiqatlar və idarəçilik prosesinin təkmilləşdirilməsi baxımından innovativ və rəqəmsal həll formalarını tətbiq etmək, tələbə, müəllim və inzibati heyət arasında ünsiyyət və qarşılıqlı əlaqələrin gücləndirilməsi yolu ilə xidmət səviyyəsini yüksəltməkdir. Bu sahə üzrə əsas prioritetlər kimi "Blackboard" elektron təhsil sisteminin bütün tədris prosesində tətbiqinə nail olunması, yeni elektron tələbə məlumat bazasının, insan resurslarının idarə edilməsi, sənəd dövriyyəsi, mühasibatlıq və təhlükəsizlik sistemlərinin hazırlanması və tətbiqi, bakalavriat səviyyəsinə ildə 600 nəfərdən az

olmayaraq tələbə qəbulunun davamlılığına və magistr hazırlığının keyfiyyətini yüksəltməklə magistratura səviyyəsinə qəbulun isə ildə 50 nəfərədək artırılmasına nail olunması göstərilə bilər. Elmi tədqiqat istiqaməti üzrə əsas prioritet Filialda ən müasir elmi-tədqiqat mühitinin formalaşdırılması üçün insan kapitalının inkişafına və maddi-texniki bazanın təkmilləşdirilməsinə davamlı olaraq kapital qoyuluşunun təmin edilməsidir. İnnovasiya istiqaməti üzrə əsas prioritet müasir informasiya texnologiyalarını tətbiq etməklə Filialın əməkdaş və tələbələrinin bu sahə üzrə bilik və bacarıqlarını artırmaqla daha səmərəli çalışması, tədqiqat aparması və təhsil almasına şərait yaratmaqdır. Sosiallıq istiqaməti üzrə əsas prioritet 300 yerlik Filial yataqxana kompleksinin tikilməsi məsələsi haqqında təkliflərin formalaşdırılması, Filial əməkdaşları və tələbələri arasında qarşılıqlı etimad, tolerantlıq, hörmət, xeyirxahlıq və nəzakət mədəniyyətinin təşviqi, əməkdaşların geniş miqyaslı humanitar-sosial proqramlar və layihələrdə daha fəal iştirak etmələri üçün imkanların yaradılması və ortaq maraq və prinsipləri nəzərə almaqla Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti vasitəsilə tələbələr arasında əlaqələrin gücləndirilməsi, kollektiv fəaliyyətin genişləndirilməsini qeyd etmək olar. Göründüyü kimi, müəyyən edilən prioritetlər Filialın məqsəd və hədəflərinə uyğundur. Lakin bu prioritetlər müəyyənləşdirilərkən Filialın kadr və maliyyə ehtiyatları nəzərə alınmamışdır.

### 1.1.5. SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

SİP-də göstərilən əsas strateji istiqamətlərə nail olmaq üçün məqsəd və hədəflər müəyyən edilmişdir. Təhsil istiqaməti üzrə məqsəd açıq şəkildə təyin edilməsə də, hədəf Filialda tədris-təlim, elmi tədqiqatlar və idarəçilik prosesinin təkmilləşdirilməsi baxımından innovativ və rəqəmsal həll formalarını tətbiq etmək, tələbə, müəllim və inzibati heyət arasında ünsiyyət və qarşılıqlı əlaqələrin gücləndirilməsi yolu ilə xidmət səviyyəsini yüksəltmək kimi qeyd edilmişdir. Elmi-tədqiqat istiqaməti üzrə hədəf - yeni nəsil tədqiqatçıların və istedadların aşkarlanması, onların çağdaş çağırışlara cavab verən elmi-tədqiqat layihələrinə cəlb edilməsi və davamlı inkişaflarına nail olunmasına yönəltməklə elm və tədqiqat sahəsində mükəmməl nəticələr əldə edilməsinə nail olmaq kimi göstərilmişdir. İnnovasiya istiqaməti üzrə hədəf - müasir informasiya texnologiyalarını tətbiq etməklə Filialın əməkdaş və tələbələrinin bu sahə üzrə bilik və bacarıqlarını artırmaqla daha səmərəli çalışması, tədqiqat aparması və təhsil almasına şərait yaratmaq qeyd olunmuşdur. Sosiallıq istiqaməti üzrə əsas hədəf Filialı təbiət-texniki və humanitar-sosial elm sahələrində bilik və təcrübə mübadiləsi məqsədi daşıyan yüksək səviyyəli konfrans, seminar, forumlar və sosial tədbirlər üçün platformaya çevirmək olduğu bildirilmişdir.

### 1.1.6. SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Əsas strateji məqsəd və hədəflər üzrə qısa və orta müddətli dövr ərzində görüləcək bir sıra tədbirlər konkret göstərilmişdir. Belə ki, Təhsil istiqaməti üzrə 2023/24-cü tədris ilindən "Blackboard" elektron təhsil sisteminin bütün tədris prosesində tətbiqi, 2023-cü ildən Filialda elektron idarəetmə sisteminin qurulması, əmək bazarının tələblərinə xüsusi diqqət ayırmaqla bakalavriat səviyyəsinə ildə 600 nəfərdən az olmayaraq qəbulun davamlılığının təmin edilməsi, 2024-cü ilədək magistr hazırlığının keyfiyyətini

yüksəltməklə magistratura səviyyəsinə qəbulun isə ildə 50 nəfərədək artırılmasına nail olunması nəzərdə tutulsa da, Elmi-tədqiqat və Sosiallıq istiqamətləri üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlər qeyd olunmayıb.

**1.1.7. SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi**

SİP üzrə fəaliyyətin nəticələrinin qiymətləndirilməsində yalnız kəmiyyət göstəriciləri öz əksini tapmış, keyfiyyət göstəriclərinə diqqət yetirilməmişdir. Qəbul olan tələbələrin orta balının yüksəldilməsi, tədrisdə keyfiyyət göstəricilərinin artım faizi, elmi-tədqiqat üzrə nüfuzlu jurnallarda məqalə sayının çoxaldılması və s. məsələlər nəzərdə tutulmamışdır.

**1.1.8. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti**

Özünütəhlil Heabatına (bundan sonra - ÖTH) əlavə edilmiş cədvəldə SİP-də nəzərdə tutulan fəaliyyətləri icra etmək üçün struktur bölmələr (tədris şöbəsi, dekanlıq, kafedralar, kompüter və informasiya mərkəzi, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsi), insan resursları (tələbələr, magistrlər, əməkdaşlar) və Filialın mövcud infrastrukturunun cəlb edildiyi göstərilmişdir. SİP-də nəzərdə tutulan fəaliyyətlər üçün maliyyə vəsaiti nəzərdə tutulmamışdır. Halbuki, SİP-də nəzərdə tutulan fəaliyyətləri icra etmək üçün bütün resurslar və ayrılan maliyyə vəsaiti konkret göstərilməlidir.

**1.1.9. SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti**

Yerində baxış zamanı məlum olmuşdur ki, SİP-in maliyyə təminatı Filialın büdcə planlaşmasında nəzərə alınmamışdır.

**1.1.10. SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti**

SİP-də Filial etik normaları, şəffaflığı, dayanıqlılığı və ictimai faydalılığı əsas götürməklə sosial məsuliyyət, ictimaiyyətlə sıx əlaqə və dayanıqlılıq idarəçilik siyasətinə və təcrübəsinə, həmçinin cəmiyyətə və ətraf mühitin mühafizəsinə öz töhfəsini verəcəyi göstərilmişdir. Eyni zamanda biznes və sənayenin elmi nailiyyətlərə söykənən innovasiyalara artan marağını nəzərə alsaq, tədqiqat, inkişaf və innovasiya strategiyasının işlənilməsi və onun həyata keçirilməsi prosesində müxtəlif tərəfdaşlarla yaradıcı və çevik şəkildə əməkdaşlığa xüsusi diqqət yetirilmişdir. SİP-də əqli mülkiyyətin qorunması məsələləri öz əksini tapmamışdır.

**1.1.11.Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması**

SİP-in 2022-ci ildə qəbul olunduğunu nəzərə alsaq, əvvəlki illərdə SİP-in icra üzrə fəaliyyəti olmamışdır.

### 1.1.12. SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

GZİT (SWOT) təhlil aparılmadığından, Filialın güclü tərəfləri, zəif tərəfləri, imkanları və təhdidlər müəyyənləşdirilmədiyindən, SİP-lə əlaqələndirilməsini də müşahidə etmək mümkün olmamışdır.

### 1.1.13. SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Təqdim edilən ÖTH-də SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı qeyd olunmur. Ümumiyyətlə SİP-in hazırlanması məqsədi ilə keçirilən iclas və görüşləri təsdiq edən sənədlər (protokollar, nəşrlər və s.) sahə baxışı müddətində Komissiyaya təqdim olunmamışdır. SİP üzrə fəaliyyətin nəticələrinin qiymətləndirilməsində daha çox kəmiyyət göstəricilərinə yer verilir (məs., magistratura səviyyəsinə qəbulun 50 nəfərdək artırılması).

### 1.1.14. SİP-in icrası üzrə ATM-in strukrtur bölmələrinn müəyyən edilməsi

ÖTH-də əlavə olunmuş cədvəllər sırasında SİP-in hazırlanması və icrası üzrə məlumat təqdim edilmişdir. Həmin hesabatda əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq SİP-in icrası üzrə cəlb olunan maraqlı tərəflər kimi yalnız Filialın struktur bölmələri göstərilmişdir. Lakin SİP-in icrası məqsədilə qısa və orta müddət üçün nəzərdə tutulan tədbirlər qeyd edilməmişdir.

## *1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi*

### 1.2.1. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti

Filialın SİP-i 2022-ci ildə qəbul olunduğundan ötən müddət (yarım illik) üzrə icra vəziyyətinin monitorinqinə dair hesabatların tərtib edilməsinə və məlumatlandırılmasına rast gəlinmədi. “SİP-in icra vəziyyətinin monitorinqi məqsədilə tərəfinizdən hansı mexanizmlərdən istifadə edilmiş və mövcud istiqamətdə hansı qərarlar qəbul olunmuşdur?” sualı müqabilində konkret olaraq mexanizmlər göstərilməmişdir.

### 1.2.2. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

Filial tərəfindən təqdim edilən ÖTH-də SİP-in icrası ilə bağlı hesabatlar özünə yer tapmamışdır. Verifikasiya zamanı heç bir struktur bölmə tərəfindən SİP-in icrası üzrə hesabat təqdim edilməmişdir.

### 1.2.3. SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

SİP-in icrasının dövri monitorinqinin aparılmasını təsdiq edən heç bir sənəd təqdim olunmamışdır.

### 1.2.4. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

SİP-in icrasının dövri monitorinqi aparılmadığından nəticələrin müzakirəsi də təşkil edilməmişdir.

### 1.2.5. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

SİP-in hazırlanmasında GZİT (SWOT) analizdən istifadə olunmadığı, SİP nəticələrinin təhlilinin aparılmasında konkret mexanizmlərin istifadə edilmədiyi, oradakı monitorinq və qiymətləndirmə alətlərinin də hələ hazır olmadığı müəyyən edilmişdir.

Dövri və illik monitorinqinin aparılması üçün müvafiq struktur rəhbərlərinin öhdəliyi olduğu SİP-də qeyd olunsa da, işlərin icrasına nəzarət edən şəxsin konkret müəyyən edilməsini, hesabatların dinlənilməsini və dövri monitorinqlərin nəticələrinin müzakirəsini təsdiq edən materiallara rast gəlinməmişdir.

SİP üzrə nəzərdə tutulan fəaliyyəti icra etmək üçün resurslardan istifadə planının olduğu müsahiblər tərəfindən qeyd olunsa da, insan və maliyyə resurslarının ayrılması vəziyyəti barədə suallar aidiyyəti struktur rəhbərləri tərəfindən qeyri-müəyyən cavablandırılmışdır. Buradakı qeyri-müəyyənliyi SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakçılığının zəif olması ilə də izah etmək olar.

## 2. KEYFİYYƏT TƏMİNATI

*2.1. Keyfiyyət təminatı siyasəti*

### 2.1.1. ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətinini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

Bakı Dövlət Universitetinin Qazax Filialı Direktorluğunun 30 dekabr 2022-ci il tarixli iclasının (protokol №15) qərarı ilə Filialın daxili keyfiyyət sisteminin təmin olunması sahəsində siyasət sənədi təsdiq edilmişdir. Sənəddə daxili və xarici maraqlı tərəflərin adı çəkilsə də, sənədin hazırlanması prosesində iştirakını təsdiq edən sənədlərə rast gəlinmədi. Eyni zamanda Filialın müvafiq strukturlardan rəylərin alınması və rəsmiləşdirilməsi prosesi aparılmamışdır. Şöbə əməkdaşları ilə müsahibə və sahə baxışı zamanı bu rəyləri təsdiq edən sənəd nümunəsinin mövcud olmadığı müəyyən edilmişdir.

### 2.1.2. ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Keyfiyyət təminatı siyasəti sənədi ümumi müddəaları, Filialın keyfiyyət sahəsi üzrə siyasətini, missiyasını, şüarını, keyfiyyət təminatının təmin olunmasında prinsiplərini, onun məqsədini, məqsədlərə nail olmaq üçün görüləcək işləri, daxili keyfiyyətin təminatı mexanizmlərini, məsuliyyətini, bu sahədə qiymətləndirmə meyarlarını və Filialda aparılan daxili keyfiyyət təminatı siyasətinin ATST-ə (ESG) əsaslandığını özündə ehtiva edir. Sənəddə bəzi anlayışların daşıdğı məna dəqiq qeyd olunmamışdır. 3-cü bölmə “Keyfiyyətin təmin olunması prinsipləri” adlandırılsa da, bölmənin bir çox müddəalarının məzmunu daha çox başqa istiqamətləri əhatə edir. “Keyfiyyətin təmin olunması sahəsində məsuliyyət”

bölməsində (6-cı bölmə) keyfiyyət təminatına bilavasitə cavabdehlik daşıyan struktur bölmələrdən biri olan Tədris şöbəsinin məsuliyyət dairəsi göstərilmir.

**2.1.3. ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi**

Keyfiyyət Təminatı siyasəti sənədindən müəllim və tələbələrin az bir qisminin məlumatlı olduğu müəyyən edilmişdir. Sənədin müxtəlif vasitələrlə (sosial şəbəkələr, məlumat lövhələri və s.) paylaşılmasına rast gəlinmədi. Müsahibə zamanı müxtəlif şöbələrin və kafedra əməkdaşlarının bu sənəddən yetərincə məlumatlı olmadığı müəyyən edilmişdir.

**2.1.4. Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)**

Sənədin əhatəlik səviyyəsi qənaətbəxş deyildir. Sənəddə ESG-yə müəyyən istinadlar olunsa da, bununla belə o, təhsil proqramlarını, infrastrukturu, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini əhatə etmir.

*2.2. Daxili keyfiyyət təminatı mexanizmləri*

**2.2.1. ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)**

Filialda keyfiyyətin təminatı və monitorinqi üzrə müstəqil struktur mövcud deyildir. Eyni zamanda keyfiyyət təminatı üzrə Komissiya olmadığından onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar da hazırlanmamışdır. Filialda Tədris Metod Şura fəaliyyət göstərir.

Filialda keyfiyyətin təminatı sistemi və onun fəaliyyətini monitorinq edə bilən kifayət qədər dəqiq sistemli mexanizmi mövcud deyil. Bunun nəticəsi olaraq Filialda keyfiyyətin təminatı siyasətinin yerinə yetirilməsi və əhatəlilik səviyyəsi, keyfiyyətin monitorinqi, maraqlı tərəflərin prosesdə iştirakı və keyfiyyətlə bağlı digər məsələlərin ölçülə bilməsi imkanları yoxdur.

**2.2.2. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

Filalda müvafiq komissiyanın təşkil edilməməsi səbəbindən prosesə təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması həyata keçirilməmişdir.

**2.2.3. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti**

Filalda müvafiq komissiyanın təşkil edilməməsi səbəbindən onun fəaliyyət planı da mövcud deyildir.

**2.2.4. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması**

Filialın keyfiyyətin təminatı sistemi olmadığından fəaliyyət planı üzrə icra mexanizmləri də mövcud deyildir. Struktur bölmə rəhbərlərinə yönəldilmiş “fəaliyyət planına hansı mexanizmlərlə nəzarət edirsiniz?” sualı qənaətbəxş cavablandırılmadı və PDCA (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) mexanizminin mövcud və yaxud işlək olmadığı müəyyən edilmişdir. Struktur bölmələrin “İş planı” çox sadə və bəsit şəkildə hazırlanmış və yerinə yetirilmə mexanizmləri göstərilməmişdir.

**2.2.5. ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

Filialın daxili keyfiyyətin təmin olunması sistemi mövcud olmadığından müvafiq indikator üzrə hər hansı qiymətləndirmənin aparılması mümkün olmamışdır.

**2.2.6. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

Filialda daxili keyfiyyət təminatı sistemi üzrə vahid fəaliyyət planı mövcud deyildir. Ayrı-ayrı struktur bölmələrin “İş planı”nda keyfiyyətlə bağlı müddəalara rast gəlinmişdir. Bu müddəalar yalnız təlim və tədrisi prosesini əhatə edir.

**2.2.7. ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

Keyfiyyət təminatı bələdçisinə (qaydalar toplusu) mövcud olmadığı müəyyən edilmişdir.

**2.2.8. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

Filialda tədrisin keyfiyyətinə dair məlumatların toplanması yalnız “Açıq dərslərin qiymətləndirmə forması”nda aparılır. Fakültə dekanı, kafedra müdirləri “Açıq dərslərin” və “Qarşılıqlı dərs dinləmələri”nin aparıldığını bildirsələr də həmin dərslərin müzakirə və təhlilinii təsdiq edən sənədlər, o cümlədən protokollar təqdim olunmadı.

**2.2.9. Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

Filialın fəaliyyətinə dair illik ÖTH mövcud deyildir.

**2.2.10. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

Filialın əvvəlki akkreditasiya qiymətləndirilməsi nəticələrinə dair ümumi məlumat və Yekun Hesabatda Komissiyanın müvafiq tövsiyələrinin ümumi icrasına və çatışmazlıqların aradan qaldırılmasına dair mövcud vəziyyəti əks etdirən sənədlər qeydə alınmamış, ona görə də bu bənd üzrə hər hansı məlumatın daxil edilməsi mümkün olmamışdır.

**2.2.11. ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

ÖTH-də Filialın fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsinə dair müxtəlif sorğuların, həmçinin, verifikasiya və müsahibələr zamanı tələbələr arasında sorğuların aparıldığı qeyd olunsa da, bu sorğuların aparılmasını təsdiq edən sənədlər (sorğuların kağız və ya elektron versiyası, nəticələr, hesabatlar və s.) təqdim edilmədi. Bundan başqa, akademik heyətin fəaliyyətinin mexanizm əsaslı qiymətləndirilməsi, akademik və tələbə heyətinin məmnunluğunun ölçülməsi üçün konkret mexanizmlər mövcud deyildir. Universitetdə keyfiyyətin təminatı istiqamətində işlərin səmərəli təşkili üçün Keyfiyyət təminatı şöbəsinin yaradılması, müəyyənləşdirici və qərarverici fakültə nümayəndələrindən ibarət Keyfiyyət Komissiyasının təşkil olunması tövsiyə olunur.

*2.3. Keyfiyyət təminatı mədəniyyəti*

**2.3.1. ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması**

Filial ÖTH-də keyfiyyət təminatı mədəniyyəti hissəsində yalnız keyfiyyət mədəniyyətinin tərifi və nəyi əhatə etməsi ilə kifayətlənmişdir. Filialda keyfiyyət təminatı üzrə konkret struktur bölmə olmadığından Tədris şöbəsinin keyfiyyət sisteminin formalaşdırılmasına və daim təkmilləşdirilməsində cabvabdeh bölmə olduğunu ehtimal etmək olardı. Lakin Tədris şöbəsi tərəfindən Filialda keyfiyyət təminatı sisteminin qurulması üzrə müvafiq addımlar atılmamışdır. Filialda keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsi mövcud deyildir. Eyni zamanda, keyfiyyətin təmin olunması və artırılması üçün fakültə, kafedra və struktur bölmələrin ümumi və ayrı-ayrılıqda üzərlərinə düşən məsuliyyətdən irəli gələn vəzifələrin icrası üzrə fəaliyyətləri qeyri-qənaətbəxşdir. Filialda baza universitetdə mövcud olan Blackboard platforması vasitəsilə LMS sisteminin qurulmasını hədəflənmişdir.

**2.3.2. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması**

Keyfiyyət təminatı sistemi mövcud olmadığından əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması mümkün olmamışdır.

**2.3.3. Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər**

Filial rəhbərliyi keyfiyyətin yüksəldilməsində maraqlı olsa da, həyata keçirilən işlər sistemli deyildir.

**2.3.4. Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti**

Filialda struktur islahatların aparılmasına və strukturlararası koordinasiya vəziyyətinin köklü təkmilləşdirilməsinə ehtiyac vardır. İlk növbədə struktur vahidi kimi Keyfiyyətin təminatı, monitorinq bölməsi (başqa formada da adlandırıla bilər) formalaşdırılmalıdır ki, bunun nəticəsində keyfiyyət təminatı sisteminin qurulması və keyfiyyətin təmin olunmasında strukturlararsı fəaliyyətin koordinasiya edilməsi üçün imkanlar yaradılacaqdır.

## 3.TƏLİM VƏ TƏDRİS

*3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında göstərilən tələblərin ödənilməsi ilə bağlı qeyd etmək olar ki, Filialda tədris prosesi, əsasən, Bakı Dövlət Universitetinin (BDU) və Azərbaycab Dövlət Pedaqqoji Universuitetinin (ADPU) müvafiq ixtisasları üzrə tədris proqramları əsasında təşkil olunmuşdur.

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Filialda tələbə qəbulu sifarişlərinin hazırlanması prosesində əmək bazarı nümayəndələrinin rəyi nəzərə alınmamışdır. Uyğun olaraq, müsahibələr zamanı tələbə qəbulu üzrə sifarişlərin formalaşdırılmasında əmək bazarının tələblərinin müəyyən edilməsi və bu prosesdə işəgötürənlərin iştirakının təmin edilməsi mexanizmlərinin formalaşdırılmadığı müəyyən edilmişdir.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Yerində baxış zamanı tələbə qəbulu sifarişlərinin hazırlanması prosesində əmək bazarı nümayəndələrinin iştirakını təsdiq edən heç bir sənəd (görüşlərin protokolları, press-relizlər) təqdim edilməmişdir. Bu istiqamətdə daha effektiv işin aparılması məqsədəuyğundur.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması

Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması ilə bağlı fakültədə müvafiq komissiyalar (Ekvivalentlik komissiyaları) fəaliyyət göstərmir. Bu məsələ ilə bağlı yerində sənədlərə baxış keçirilmişdir. Fakültədə kreditlərin tanınması işinin normal təşkil olunması təsbit edilmişdir.

*3.2. Təhsil proqramları*

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

Filialda təhsilin bakalavriat və magistratura səviyyələri üzrə mütəxəssis hazırlığı aparılır. Belə ki, universitetdə ali təhsilin bakalavriat səviyyəsində 17 ixtisas üzrə, magistratura səviyyəsində isə 7 ixtisaslaşma üzrə qəbul həyata keçirilir. Filialda doktorantura səviyyəsi üzrə tələbə qəbulu aparılmır.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

Keyfiyyət təminatı üzrə struktur bölmənin olmaması proqramlar üzrə monitorinqin və qiymtələndirilmənin aparılıb-aparılmaması haqqında qeyri-müəyyənlik yaradır. Təhsil proqramları üzrə tələbə qəbulu üzrə sifarişlərin formalaşması zamanı infrastruktur və kadr potensialı, məzunların işədüzəlmə və təhsilini artırma imkanlarının araşdırılmaması da verifikasiya zamanı müəyyən edilmişdir. Belə ki, magistratura səviyyəsi üzrə tədris aparan bir çox müəllimlərin elmi dərəcəsinin olmaması sifarişin hazırlanması zamanı kadr potenisialının nəzərə alınmamasından xəbər verir.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

Monitorinq zamanı qəbul aparılan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğun olduğu müəyyən olunmuşdur.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Filialda bakalavriat və magistratura səviyyələri üzrə tədris proqramlarının hazırlanması, qiymətləndirilməsi və təsdiq olunması prosesləri "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə uyğun təşkil olunmuşdur.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Filialda ayrı-ayı ixtisaslar üzrə təhsil proqramları mövcuddur və onların əksəriyyəti BDU-nun, ADPU-nun və bir qismi isə müvafiq kafedralarda hazırlanaraq, AR ETN-nin qrifi və BDU-nun Elmi Şurasının qərarları ilə nəşr olunmuşdur. Yerində baxış zamanı Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu müəyyən edilmişdir.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTS) prinsiplərinə uyğunluğu

Təhsil proqramlarının baza universitet tərəfindən hazırlandığını nəzərə alsaq, həmin sənədlərin Avropa Kredit Transfer Sisteminə uyğun hazırlanmışdır.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Tədris olunan fənlər təhsil proqramlarının tələblərinə uyğun tərtib olunmuşdur.

**3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu**

Müsahibə zamanı bildirildi ki, kreditlərə uyğun olaraq həftəlik auditoriya saatlarının miqdarı tədris planlarına əsasən müəyyənləşdirilir. Bu prosesə Tədris şöbəsi tərəfindən nəzarət edilir.

**3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı**

İctimaiyyətlə əlaqələr zəif qurulduğundan əldə olunan təlim nəticələri haqqında məlumatların çatdırılması qeyri-qənaətbəxşdir.

**3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti**

Təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti ilə bağlı ÖTH-də seçmə fənlərin müəyyənləşdirilməsi zamanı müəssisənin profili, ixtisasın istiqaməti, mahiyyəti, müasirliyi, əmək bazarının gözləntiləri, regionun əmək bazarının xüsusiyyətləri, eləcə də tələbələrin maraq və fikirlərinin nəzərə alındlğı qeyd olunmasına baxmayaraq, yerində baxış zamanı prosesləri özündə əks etdirən heç bir müvafiq sənəd təqdim edilməmişdir.

*3.3. Tədrisin təşkili*

**3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti**

Filialda qüvvədə olan bütün tədris planları, əsasən, baza universitet tərəfindən hazırlanan tədris planlarıdır. Filial tərəfindən təsdiq edilmiş tədris planlarına rast gəlinmədi. Baza universitet tərəfindən hazırlanmış tədris planları, əsasən, kredit sisteminin tələbləri gözlənilməklə tərtib edilmişdir. Bakalavr dərəcəsinin alınması üçün nəzərdə tutulmuş 240 kredit və magistr dərəcəsinin alınması üçün 120 kredit normativ hüquqi sənədlərə müvafiq olaraq semestrlər üzrə bərabər şəkildə (hər semestr üzrə 30 kredit) bölüşdürülmüşdür. Tədris planında öyrənilməsi məcburi olan ümumi fənlərə 24 kredit, bu modulun seçmə fənlər blokuna 6 kredit, ixtisas fənləri blokuna (o cümlədən “Mülki müdafiə” fənni üzrə) 120 kredit, universitet tərəfindən müəyyən edilən ixtisasın seçmə fənlərinə 60 kredit ayrılmışdır. Tədris planında ümumi və ixtisas fənləri arasında balans 30:180 nisbətində saxlanılır. Bu zaman məcburi fənlər nisbəti 24:120, seçmə fənlər nisbəti isə 6:60-dır.

**3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti**

Filialda tədris qrafikinin hazırlanmasında çatışmamazlıqlar aşkarlanmışdır. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafiki bəzi texniki qüsurlar olsa da, ümumilikdə uyğundur.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Filialda ixtisaslar üzrə Tədris planının məcburi və seçmə fənlərə dair bölgüsündə qanunauyğunluq gözlənilmişdir.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti əsasən gözlənilmişdir.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu

Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyənləşdirilməsi, müvafiq olaraq prosesə nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu aşkar olunmamışdır. Bunu da Filialda Keyfiyyət təminatına cavabdeh strukturun olmaması ilə əlaqələndirmək olar.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Fənn müəllimləri tərəfindən hazırlanmış sillabuslar (fənnin tədris proqramı) kafedralarda müzakirə edilərək kafedra müdiri tərəfindən təsdiq olunmuşdur. Sillabuslarda fənnin təlim nəticələrinin əsasən qeyd olunmadığı müəyyən edilmişdir. Sillabusların ciddi şəkildə təkmilləşdirilməsinə ehtiyac vardır.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

Filialda 5 günlük iş rejimində tələbənin həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Tələbənin həftəlik auditoriya saatının miqdarı ixtisaslar üzrə əsasən 22 saat həcmində müəyyənləşdirilmiş, semestr ərzində tədris edilən fənlərin sayı isə 5-6 miqdarında müəyyən edilmişdir.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Fərdi tədris planlarında ixtisasın tədris planına əsasən tələbənin tədris ili ərzində semestrlər üzrə keçəcəyi fənlər, onların kreditləri və fənni tədris edəcək müəllimlərin ad və soyadları göstərilmişdir. Tələbənin fərdi tədris planının hazırlanması ilə bağlı ÖTH-də "Hər bir tələbə üçün fərdi tədris planları onların iştirakı ilə tərtib olunur. Növbəti tədris ili üçün tələbənin fərdi tədris planları tərtib olunarkən buraya ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir. "Akademik borcu qalan tələbələrə həmin fəndən krediti qazanması üçün şərait yaradılır" qeyd olunmuşdur. Yerində baxış zamanı tələbənin fərdi tədris planlarında dürüstləşmə aparılmasına ehtiyacın olduğu aşkar edilmişdir. Eyni zamanda fərdi tədris

planında tərtib olunması tarixndə ziddiyyətlərin olması müəyyənləşdirilmişdir. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən kafedralar üzrə təsdiq olunmuş müəllimin illik işçi tədris planları mövcuddur.

**3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğunluğu**

Filialda ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planları mövcuddur.

**3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

Yerində baxış zamanı müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planının mövcud olduğu müəyyən edilmişdir.

**3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

ÖTH-də də qeyd edildiyi kimi, ixtisas üzrə Təhsil proqramında hər fənn üzrə AKTS krediti müəyyən olunmuşdur. Bu kreditlərə uyğun olaraq mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin saatları kafedralarda professor-müəllim heyətinin müzakirələri əsasında müəyyən edilir və tədris planlarında öz əksini tapır.

**3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti**

Filialda məsləhət saatları hər bir mühazirə dərsinə bir tədris qrupu üçün 1 saat olaraq müəyyənləşdirilmişdir.

**3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti**

Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Sərbəst işin yerinə yetirilməsinə görə tələbəyə maksimum 10 bal verilir.

**3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti**

ÖTH-də də pedaqoji və istehsalat təcrübəsinin işinin təşkili ilə əlaqədar heç bir məlumata rast gəlinmədi. ÖTH-yə əlavə edilən sənədlər sırasında təcrübəyə dair hesabat və

bağlanmış müqavilələrin nüsxələri mövcuddur. Təqdim edilmiş hesabatlar çox bəsit formada tərtib olunmuş, hesabatlılıq məzmunu daşımır, özündə yalnız bəzi statistik məlumatları əks etdirir. Yerində baxış zamanı müəyyən edilmişdir ki, universitetlə təcrübə təşkil olunacaq təşkilatlar arasında müvafiq qaydada müqavilələr imzalanmışdır. Müqavilələr bəsit formada tərtib olunduğundan tərəflərin hüquq və vəzifələrininin müəyyənləşdirilməsinə imkan vermir. Bəzi müqavilələrdə tarix və nömrələrin göstərilmədiyi qeydə alınmışdır. Bu əsnada pedaqoji və istehsalat təcrübəsi üzrə işin təkmilləşdirilməsinə ehtiyac olduğu diqqət çəkir.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

ÖTH-də əməkdaşların ixtisasartırma prosesində iştirak etmələri ilə bağlı məlumat mövcud deyildir

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Kurs layihəsi (işi) və referatların hazırlanması BDU-nun Elmi Şurasının 2014-cü il 15 oktyabr tarixli iclasının qərarı ilə qəbul edilmiş “Bakı Dövlət Universitetində tələbələrin kurs işləri (layihələri) haqqında Əsasnamə”yə uyğun olaraq həyata keçirilir. Kurs layihəsinin (işinin) və referatların müdafiəsi müvafiq kafedralar tərəfindən müəyyən edilmiş müddətlərdə tələbələrin iştirakı ilə təşkil olunur.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

İxtisas kafedralarında elmi-tədqiqat işi ilə məşğul olan professor-müəllim heyəti tərəfindən buraxılış işi və dissertasiya mövzuları hazırlanır. Buraxılış işi və magistr dissertasiyası işlərinin mövzuları müvafiq kafedralarda müzakirə olunur və fakültə Elmi Şurasının qərarı ilə təsdiq olunur. Müsahibələr zamanı bildirildi ki, buraxılış üşi üzrə müdafiəyə qədərki bal (50 bal) may ayının sonuna qədər kafedralarda ilkin müzakirələr əsasında müəyyən olunur. Həmin balın necə hesablanması ilə bağlı konkret meyarlar göstərilmədi.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

Filialda imtahan sessiyalarının təşkili mövcud qanunvericiliyə və müvafiq normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilir. İmtahan sessiyasının keçirilməsi və qaydaları ilə bağlı müvafiq əmr verilir.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

Filialda yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na əsasən tənzimlənir.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Hesabat dövründə Filialda kredit borcu yaranmış tələbələrin və fənlərin illər üzrə dinamikası aşağıdakı kimi olmuşdur:

| Tədris ili | I tədris ili üzrə | II tədris ili üzrə | III tədris ili üzrə | IV tədris ili üzrə | V tədris ili üzrə | Cəmi |
|---|---|---|---|---|---|---|
| 2016/2017 | 212 | - | 87 | 76 | - | 375 |
| 2017/2018 | 311 | 39 | - | 39 | - | 389 |
| 2018/2019 | 397 | 153 | 24 | - | 1 | 575 |
| 2019/2020 | 135 | 65 | 27 | 33 | - | 260 |
| 2020/2021 | 11 | 16 | 16 | 2 | 1 | 45 |
| 2021/2022 | 211 | 120 | 91 | 41 | 3 | 466 |

Cədvəldən də göründüyü kimi, pandemiya dövründə (məs., 2020/2021-ci tədris ili) kredit borcu olan tələbələrin sayı digər tədris illərinə nisbətən 7-10 dəfə az olmuşdur. Bu da Filial tərəfindən xüsusi güzəştli qiymətləndirmə üsulunun tətbiqi ilə (məs., bütün tələbələrə müəyyən həcmdə balın verilməsi - bağışlanması) bağlıdır.

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aşağıdakı kimi olmuşdur:

| Tədris ili | Cəmi say |
|---|---|
| 2016/2017 | 117 |
| 2017/2018 | 126 |
| 2018/2019 | 192 |
| 2019/2020 | 181 |
| 2020/2021 | 166 |
| 2021/2022 | 233 |

Tədris şöbəsi tədris prosesində səmərəliliyin izlənilməsi və təkmilləşdirilməsi ilə bağlı sorğunu konkret şəkildə cavablandırmamış, yalnız ümumi sözlərlə kifayətlənmişdir.

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Filialda tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyətinin öyrənilməsi ilə bağlı mexanizm mövcud deyildir.

## *3.4. Tədris metodları və üsulları*

### 3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Filialın ÖTH-də qeyd olunur ki, "Tədris prosesində təlimin keyfiyyətinin artırılması məqsədilə tətbiq olunan interaktiv metodlarından istifadə zamanı İnformasiya-kommunikasiya texnologiyaları və digər vasitələr əhəmiyyətli rol oynayır. İnformasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi müxtəlif dərs formalarının həyata keçirilməsində və onlardan istifadə olunmasına imkan vermişdir" (səh.35). Əməkdaşlarla aparılan müsahibələr zamanı Filialda müasir tədris metodları və üsullarından istifadə edildiyi də vurğulanmışdır.

Filialda yerində baxış zamanı Komissiya sədri və üzvləri bakalavriat səviyyəsində tədris olunan dərslərdə də iştirak etmişdir. Dərslərdə qismən təlimin yeni metod və texnologiyalarından istifadə edilərək tədris olunduğu müşahidə edilsə də, yuxarıda qeyd olunanların bir çoxundan istifadə edilməsinə rast gəlinmədi. Filial üzrə təlim texniki vasitələrinin sayının azlığını nəzərə alsaq (cəmi 4 proyektor), innovativ dərslərin həyata keçirilməsi özlüyündə qeyri-real görünür. Qismən interaktiv (sual-cavab, kiçik qruplarda işin təşkilini nəzərə alaraq) dərslərin reallaşmasını daha obyektiv qiymətləndirmək olar.

Filialın ÖTH-də "Professor-müəllim heyəti tərəfindən daha çox istifadə edilən fəal və interaktiv təlim metodları (Dialoq mühazirə, Problemli mühazirə, Qrup təqdimatları, Layihə üsulu, "Dəyirmi masa" metodu (seminar), Didaktik oyunlar) nəticəsində tələbələrdə arqumentləri təhlil etmə və mühakimələr yürütmə kimi intellektual bacarıqların inkişafı, fikirlərini sistemli və lakonik çatdırmaq kimi idraki və ünsiyyət bacarıqları formalaşdırır, problemlərin həlli yolları haqqında mülahizələr yaradır və onları həmin problemlərin həllinə sövq edir" qeyd olunur. Verifikasiya zamanı Filialda tədris olunan fərqli ixtisaslar üzrə təqdim olunmuş onlarla sillabuslara baxış zamanı qeyd olunan təlim formalarını özündə ehtiva edən bölməyə rast gəlinməmişdir. Eyni zamanda tədris olunan fənlər üzrə təlim nəticələri də sillabuslarda qeyd olunmamışdır.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Filialda aparılan müsahibələr zamanı tədris metodlarının tələbəyönümlü olduğu, fənlərin tənqidi təfəkkür, problemyönümlü və səriştə əsaslı tədris yanaşmalarından istifadə edilərək tədris olunduğu qeyd olundu. Eyni zamanda Filialın ÖTH-də kafedralarda müasir təlim və tədris metodlarının tətbiqinin əhəmiyyəti barədə müzakirələrin aparıldığı da bildirildi. Lakin həmin müzakirələri təsdiq edən heç bir sənəd təqdim olunmadı. Məlumatın dəqiqləşdirilməsi ilə bağlı Tədris şöbəsində açıq dərslərin və monitorinq dərslərinin müşahidə olunması ilə bağlı hesabatlar və sorğu nəticələri istənilsə də, yerində baxış müddətində təsdiqedici sənədlər təqdim olunmamışdır.

Filialda keyfiyyətin təminatına və monitorinqinə xüsusi cavabdeh qurum olmadığından açıq dərslərə nəzarət olunması, aidiyyəti üzrə hesabatlar təqdim edilməsi və əldə olunan nəticəyə uyğun təkliflər irəli sürülməsi ilə bağlı mərkəzləşdirilmiş fəaliyyət müəyyn edilməmişdir. Müasir təlim texnologiyalarından istifadəni optimallaşdırmaq, uyğun öyrənmə mühiti yaratmaq, praktiki tədris yanaşmalarından istifadəni və davamlı peşəkar inkişafı təmin etmək məqsədilə kafedralar üzrə əməkdaşların ehiyaclarının müəyyənləşdirilməsi və onların təlimlərə cəlb olunması üçün mexanizm mövcud deyildir. Eyni zamanda Filial tərəfindən

təqdim edilən ÖTH-də professor-müəllim heyətinin təlimlərə cəlb olunması ilə bağlı heç bir məlumat təqdim edilməmişdir.

Filialda aparılan müsahibələr zamanı tədris metodlarının tələbəyönümlü olduğu, fənlərin tənqidi təfəkkür, problem yönümlü və səriştə əsaslı tədris yanaşmalarından istifadə edilərək tədris olunduğu qeyd olundu. Eyni zamanda, Filialın Özünütəhlil hesabatında kafedralarda müasir təlim və tədris metodlarının tətbiqinin əhəmiyyəti müzakirə olunduğu qeyd olunmuşdur. Lakin həmin müzakirələri təsdiq edən heç bir sənəd təqdim olunmamışdır. Məlumatın dəqiqləşdirilməsi ilə bağlı Tədris şöbəsində açıq dərslərin və monitorinq dərslərinin müşahidə olunması ilə bağlı hesabatlar və sorğu nəticələri istənilsə də, təsdiqedici sənəd təqdim olunmadı.

Filialda keyfiyyətin təminatına və monitorinqinə xüsusi cavabdeh qurum olmadığından açıq dərslərə nəzarət olunması, aidiyyatı üzrə hesabatlar təqdim edilməsi və əldə olunan nəticəyə uyğun təkliflər irəli sürülməsi ilə bağlı mərkəzləşdirilmiş fəaliyyətin təkmilləşdirilməsinə ehtiyac vardır. Kafedraların əməkdaşlarının müasir təlim texnologiyalarından istifadəni optimallaşdırmaq, uyğun öyrənmə mühiti yaratmaq, praktiki tədris yanaşmalarından istifadə etmək və davamlı peşəkar inkişafı təmin etmək üçün ehiyacların müəyyənləşdirilməsi və əməkdaşların təlimlərə cəlb olunması üçün mexanizm mövcud deyildir. Eyni zamanda, Filial tərəfindən təqdim edilən Özünütəhlil hesabatında professor-müəllim heyətinin təlimlərə cəlb olunması ilə bağlı heç bir məlumat təqdim edilməmişdir.

**3.4.3-3.4.8 Ümumi rəy**

**3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**

**3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti**

**3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**

**3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**

**3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti**

**3.4.8 Tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

ÖTH-də yuxarıda qeyd olunan indikatorlarla bağlı məsələlər daha çox deklarativ xarakter daşıyır. Məsələn, hesabatda qeyd olunur ki, “Tələbəyönümlü təhsil sistemində tələbə motivasiyasının yüksək səviyyədə olması vacibdir. Müəllim özünün rəhbərlik və məsləhətçi rolunu saxlamaqla tələbələrdə müstəqil düşünmə bacarığını formalaşdırmalıdır”, “Eyni zamanda TYT onlara komanda işi, yazılı və şifahi ünsiyyət, vəzifələrin prioritetləşdirilməsi və kritik analiz kimi yeni bacarıqları daha effektiv öyrənməyə və əldə etməyə imkan verir” (səh.40) və s. göstərə bilərik. Həmçinin tələbəyönümlü təhsilin Filial və tələbələr üçün faydaları sadalanır. Göründüyü kimi, hesabatda fərdi qabiliyyətlərin inkişafına və

tələbəyönümlü təhsilin inkişafı istiqamətində görülən işlərdən daha çox maarifləndirici məlumatlar yer almışdır. Həm də Filialda tədris və təlim proseslərində rəqəmsal texnologiyalardan istifadənin vacibliyi qeyd edilsə də, real addımlar atılmamışdır (Filialda cəmi 4 proyektor, 26 ədəd kompüter mövcuddur). Aparılan görüşlər nəticəsində aydın oldu ki, Filial rəhbərliyi bu istiqamətdə görülən işlərə böyük önəm verir. Yerində baxış zamanı (dərslərin müşahidəsi) sadalanan bəzi tədris metodlarına qismən də olsa rast gəlinmişdir. Tədrisdə tələbəyönümlü yanaşmanın tətbiqinin vurğulanması da müsbət haldır. Bunun üçün təkmilləşdirilməsinə ehtiyac duyulan bəzi sahələr mövcuddur: birincisi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün professor-müəllim heyətinin müvafiq təlimlərə cəlb olunması; ikincisi isə tələbələrin həm rəqəmsal infrastruktur, həm də tədris materialları baxımından yüksək keyfiyyətli resurslara çıxışının təmin edilməsinə diqqət yetirilməsi. Təbii ki, bu kimi addımlar prosesə öz müsbət təsirini göstərmiş olar.

Bundan əlavə, tələbəyönümlü təhsilin əhəmiyyəti qeyd olunsa da, Filialda tələbə ehtiyaclarının və maraqlarının qarşılanmasının hansı formada təminatı ilə bağlı sübutedici sənədlərin olmaması da müşahidə edilmişdir. Tələbələrin ehtiyaclarının müəyyn edilməsini təmin etmək üçün onlar arasında rəy və qiymətləndirmə üzrə sorğuların keçirilməsi, həmin sorğuların nəticələrinin gələcəkdə akkreditasiya zamanı ÖTH-yə daxil edilməsi məqsədəuyğundur.

*3.5. Təlim və tədris resursları*

**3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti**

Filialda elektron idarəetmə sistemi mövcud deyildir.

**3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti**

ÖTH-də dörd otaqda proyektor quraşdırıldığı (bir otaqda 15, digər otaqda isə 11 kompüter olmaqla) yalnız iki ixtisaslaşmış auditoriyanın mövcud olduğu göstərilir. Filialda təhsilalanların sayının 1800 nəfərdən çox olduğunu nəzərə alsaq, 1 nəfər tələbəyə düşən kompüter sayı nisbətinin 0.0288 kimi olduğunu qeyd edə bilərik. Müsahibələr zamanı müasir təlim prosesini təşkil etmək üçün lazimi texniki vasitələrlə təchiz olunmuş auditoriyaların sayının həddən artıq az olduğu müəyyən olunmuşdur.

**3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti**

Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platforması və jurnal mövcud deyildir.

**3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu**

Yerində baxış zamanı indikatorda qeyd edilən xidmətlərin təhsil proqramlarının tələblərinə uyğun olmadığı müəyyən edilmişdir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

İnfrastruktura baxış zamanı dörd otaqda proyektor quraşdırıldığı, (bir otaqda 15, digər otaqda isə 11 kompüter olmaqla) internet şəbəkəsi və digər informasiya resursları ilə təmin edilmiş iki ixtisaslaşmış auditoriyanın mövcud olduğu müəyyən edilmişdir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu

Filialın mövcud auditoriya fondu onun tələbə sayına uyğunluq təşkil etmir. Bu narahatlıq görüş zamanı Filial rəhbərliyi tərəfindən də qeyd edilmişdir. Belə ki, Filialın ümumi auditoriya fondu 1160.5 kv.m., umumi tələbə sayı isə 1852 nəfərdir. Tələbə sayına nisbətdə dərs üçün uyğun olan auditoriya fondunun az olduğu müşahidə olunmuşdur.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası qənaətbəxşdir. Bu əsnada qeyd edək ki, inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 638 kv.m. təşkil edir.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Filialda təhsil alan tələbələrin baza universitetin elektron kitabxanasına çıxış imkanı yaradılmışdır. Filial kitabxanasının eyni zamanda müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikasında azalma olmuşdur ki, bunun da səbəbi kimi pandemiya dövrü göstərilir. Hal-hazırda tələbə və professor-müəllim heyətinin kitabxanadan istifadə imkanları tam bərpa olunmuşdur.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) artım dinamikası müşahidə olunur. ÖTH-də Filialın kitabxanasında 7747 ədəd kitab olduğu göstərilmişdir. Onlardan 4628 latın qrafikası ilə çap olunmuşdur. Kitablardan 3652 dərslik və dərs vəsaiti, 3778 bədii ədəbiyyat, 317 monoqrafiya və digər nəşrlərə aiddir (səh.36). Müəyyən fənlərdə təminat olduqca zəngin olsa da, bəzi seçmə fənlər üçün isə yeni ədəbiyyatların alınmasına ehtiyac duyulur. Bununla bağlı olaraq bir cox kitabxanalarla, o cümlədən baza universitetin nəşriyyatı ilə mütəmadi olaraq əlaqə saxlandığı bildirilmişdir. Baza universitetin elmi və elektron kitabxanasından, eləcə də digər informasiya resurslarından istifadə olunduğu göstərilmişdir.

Verifikasiya zamanı Filial tələbələrinin baza universitetin elektron kitabxanasına giriş imkanlarının olduğu müəyyənləşdirilmişdir. Tələbələrin kitabxanadan aktiv iştirakı müşahidə edilmişdir. Lakin son beş ildə Kitabxana resurslarının yenilənməsi üçün (yaxud elektron kitabxananın tətbiqi üçün) vəsait ayrılmamışdır (səh. 54).

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Filialda tədris ancaq Azərbaycan dilində aparıldığından kitab fonduna daxil olan vəsaitlərin yarıdan çoxu Azərbaycan dilindədir. Kitab fondunun mövcudluğu və artım dinamikasında da irəliləyiş müşahidə olunur. Eyni zamanda kitabxanada rus, ingilis və digər dillərdə kitab fondu mövcuddur və 2017-2022-ci illərə müqayisəli şəkildə nəzər yetirdikdə hər tədris dili üzrə müəyyən sayda əlavə kitab nüsxələrinin daxil olması müşahidə olunur. Ancaq bununla belə mövcud kitab fondunun zənginləşdirilməsinə ehtiyac olduğu diqqət çəkir.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Təqdim olunan məlumata əsasən, Filialda 2016-2022-ci illər üzrə dərsliklərin, elmi ədəbiyyatların əldə edilməsi və elmi bazalardan istifadə üçün vəsait ayrılmamışdır. Buna əsas səbəb kimi baza universit xətti ilə dərslik və dərs vəsaitlərinin hədiyyə olunması, həmçinin son illərdə oxucuların daha çox elektron elmi bazalardan istifadə etməsi göstərilmişdir.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi

Yerində baxış zamanı təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin aparılmadığı müəyyənləşmişdir.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

Filialda təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu vəziyyəti müasir tələblərə cavab vermir, mövcud resursların təhsilalanlar üçün əlçatanlığı isə ümumilikdə təmin edilir. Əlavə olaraq, auditoriya fondu, eləcə də otaqlarda və laboratoriyalarda tam işlək vəziyyətdə olan və sürətli internetə qoşulmuş kompüterlərin sayı mövcud tələbə sayına uyğun deyildir.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

Filialda sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resursları mövcud deyildir.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Filialda professor-müəllim heyəti üçün təkmilləşdirmə kursları təşkil olunmur. Bundan əlavə, müəllimlərin mexanizm əsaslı mükafatlandırması sistemi də mövcud deyildir.

**3.5.16 Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu**

Tələbə klubları, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursları (inzibati və büdcə resrursları) kifayət qədər deyildir. Filialda tələbə təşkilatları (Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı və "Bir Könüllüləri" qrupu) mövcuddur və onların fəaliyyət göstərməsi üçün zəruri şərait yaradılmışdır.

**3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti**

Yerində baxış zamanı indikatorda qeyd edilən psixoloji məsləhət xidmətlərinin Filialda mövcud olmadığı müəyyən edilmişdir.

*3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

**3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti**

Filialda bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar mövcuddur və Elm və Təhsil Nazirliyinin müvafiq əsasnaməsi, eləcə də bakalavriat və magistratura səviyyələri üzrə təsdiq olunmuş təhsil proqramları ilə tənzimlənir.

Qiymətləndirmənin Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydalara əsasən keçirildiyini, xüsusi qiymətləndirmə prinsiplərinin olmadığı aşkar edilmişdir. Həmçinin meyarlar və ya prinsiplərin formalaşdırılması ali məktəbin səlahiyyətində olmadığı da yerində baxış zamanı qeyd olunmuşdur.

**3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti**

Seminar, məşğələ və labarator dərslərdə tələbələrin qiymətləndirilməsi mövcud qaydalara uyğun aparılır. Lakin qiymətləndirmədən narazı olan təhsilalanlar üçün isə ölçüləbilən meyarlar təqdim olunmamışdır. Aralıq qiymətləndirmədən narazı qalan tələbələr üçün isə Apellyasiya Komissiyası fəaliyyət göstərir.

**3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti**

Qiymətləndirmə zamanı müxtəlif formalardan (üz-üzə, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunması vəziyyəti qənaətbəxşdir. Belə ki, müxtəlif fənlərin sillabusunu incələyərkən, o cümlədən dərslərin müşahidəsi zamanı qiymətləndirmə üçün fərqli üsullardan istifadə edildiyi müşahidə olundu. Filialda müxtəlif qiymətləndirmə formalarından istifadə üçün yaradılmış şəraiti qismən qənaətbəxş hesab etmək olar.

**3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti**

ÖTH-də Filialda tədrisin keyfiyyətinin və tələbələrin biliyinin qiymətləndirilməsinin mövcud vəziyyətinin öyrənilməsi, tələbələrin və valideynlərin Filialda məmnunluq dərəcəsinin

müəyyən edilməsi, onların rəy və təkliflərinin dinlənilərək idarəetmə qərarlarının qəbul edilməsində nəzərə alınması qarşıya qoyulmuş əsas vəzifələrdən biri olduğu vurğulanmışdır. Filial direktorunun valideynlərlə görüşünün təşkil edildiyi, bu görüşlər zamanı tələbələrin təhsil alması üçün yaradılan şərait və imkanlar, imtahan prosesi, valideyn-Filial əlaqələrinin vacibliyi, tələbələrin sosial-məişət problemləri kimi məsələlərin müzakirə olunduğu bildirilmişdir. Lakin yuxarıda sadalananları idarəetmə prosesində əks etdirəcək heç bir mexanizmin olmadığı müəyyən edilmişdir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Müsahibələr zamanı Filialın professor-müəllim heyəti tərəfindən qeyd edilmişdir ki, təhsilalanlar üçün təhsilə dair bütün məsələləri müzakirə etmək imkanı yaradılmışdır. Həmçinin, müsahibə zamanı sillabuslarda qiymətləndirməyə dair bütün şərtlərin qeyd olunduğu və tələbələrin rahat şəkildə müəllimlə qiymətləndirmə ilə bağlı müzakirə apara bilmək imkanlarının mövcudluğu barədə Komissiyaya müsahibələr zamanı bildirilmişdir. Lakin, müşahidə edilən dərslər zamanı nəzərdən keçirilən sillabusların heç birində "təlim nəticələri" hissəsinin mövcud olmadığı aşkarlanmışdır. Bundan başqa, müəllimlər tərəfindən təlim nəticələrinin qiymətləndirilməsi üçün hansı üsullardan istifadə edilməsi məsələsinin sillabuslarda müəyyən edilmədiyi də yerində baxış zamanı verifikasiya edilmişdir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadəsi mövcud deyildir. Tələbənin qiymətləndirməsi kağız jurnal üzərindən qeydə alınır. Filialda tələbələrin davamiyyətini və qiymətləndirməsini qeydə alan elektron jurnal mövcud deyildir.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Müvafiq kateqoriyadan olan tələbələrin cari və aralıq qiymətləndirilməsini özündə əks etdirən mexanizm və üsullar mövcud deyildir.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Filialda həm cari, həm də aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyinə uyğun olaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında müəyyən edildiyi müsahibə zamanı Komisiyaya bildirilmişdir. Tələbələrin cari qiymətləndirməsində, əsasən, sillabusda qeyd olunduğu kimi sorğu-sual, test üsulu və s. vasitələrdən istifadə olunur. Tələbələrin məşğələlərə davamiyyəti də cari nəzarətə aiddir. Aralıq qiymətləndirmə yekun - imtahan, tədqiqat işlərinin müdafiəsi, yekun təcrübə proqramının (hesabatının) qiymətləndirilməsi və s. şəklində təşkil olunur.

**3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

Filialda Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyətini (yekun dövlət imtahanı və və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili) qənaətbəxş hesab etmək olar. Yekun Dövlət Qiymətləndirilməsi həm bakalavriat, həm də magistratura səviyyələrində Elm və Təhsil Nazirliyinin müvafiq əsasnamələrinin tələblərinə uyğun olduğu müəyyənləşdirilmişdir. Belə ki, Filialda ixtisasın tədris planında nəzərdə tutulan bütün fənlərdən müvəffəq qiymət alanlar Yekun Dövlət Attesasiyasına buraxılır.

**3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Müsahibələr zamanı Filialda bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyətinin qənaətbəxş olduğu bildirilmişdir. Belə ki, hər semestr imtahan sessiyasının sonunda təhsilalanların bilik və bacarıqların qiymətləndirilməsi üzrə nəticələrin təhlil olunduğu vurğulanmışdır. Lakin kafedralara yerində baxış zamanı imtahan sessiyalarının nəticələrinin müzakirəsini təsdiq edən sənədlər təqdim olunmamış, hətta bəzi kafedralara imtahan sessiyasının nəticələri barədə məlumatın təqdim edilmədiyi aşkarlanmışdır. Bu isə Filialın struktur bölmələri arasında kommunikasiyanın effektiv təşkil olunmamasından xəbər verir.

**3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

Filalda təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formadadır və tələbələr üçün əlçatandır. Tələbələrin hər hansı bir sualı olduqda tyutorlara, kafedra müdirinə və ya dekana müraciət edərək aydınlaşdırmaq imkanı vardır. Lakin hər tyutora 600-dən artıq təhsilalanın düşməsi keyfiyyətli tyutor xidmətinin göstərilməsi üçün müvafiq şərtləri təmin etmir.

**3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu**

Məzunlara dövlət nümunəli təhsil sənədi (diplom) və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışlar qanunvericiliyin tələblərinə uyğun olaraq verilir. Məzun ola bilməyən tələbələr kontingentdə saxlanılır. Tələbənin kontingentdə saxlanılması və ya xaric edilməsi mövcud qanunvericiliyə əsasən həyata keçirilir. Təhsil müddətini müvəffəqiyyətlə başa vuran tələbələrə diplom verilir. Verifikasiya zamanı diplomların verilməsinin fakültə tərəfindən həyata keçirildiyi məlum olmuşdur.

*3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

**3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti**

Filialda akademik heyətin işə qəbulu ilə bağlı xüsusi qaydaların olmadığı və prosesin baza universitetin Elmi Şuranın 30 mart 2021-ci il tarixli iclasının qərarı ilə təsdiq olunmuş "Bakı Dövlət Universitetində işə qəbul qaydaları"na əsasən tənzimləndiyi müsahibələr zamanı bildirilmişdir. "Müsahibədə akademik heyətin işə qəbulu ilə bağlı ümumi prosesin qanunvericiliyin tələblərinə uyğun şəkildə nizamlanması diqqətə çatdırıldı və vurğulandı ki, akademik heyət müsabiqə, texniki heyət isə müsahibə əsasında işə qəbul olunur. Təqdim edilən hesabatda yalnız Pedaqoji fənlər kafedrasının müdiri vəzifəsinə keçirilən seçkinin protokolu öz əksini tapmışdır. Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müdiri isə həmin vəzifəyə ictimai əsaslarla təyin edilmişdir.

**3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti**

Filialda akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar mövcud deyildir.

**3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti**

Təqdim edilən hesabatda akademik heyətin interkativ və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi ilə əlaqədar heç bir məlumata rast gəlinməmişdir. Müsahibələr zamanı Pedaqoji faklütənin dekan əvəzi onunla birlikdə daha 2 əməkdaşın BP-nin təşkil etdiyi beynəlxlaq səviyyəli təlim kursunda iştirak etdiyini bildirdi. Müsahibə zamanı həm də pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsi məqsədilə akademik heyətə kompüterdən istifadə bacarıqlarının inkişaf etdirilməsi üzrə təlimlərin keçirildiyi bildirilmişdir.

**3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və və digər təlim kurslarında iştirakı vəziyyəti**

Filialda yerində baxış zamanı akademik heyətin ehtiyaclarının öyrənilməsi, təlimlərin təşkil edilməsi və ya gənc müəllimlərin ixtisasartırma kurslarına göndərilməsi ilə bağlı hər hansı bir məlumatın olmadığı müəyyən edilmişdir. Təlim ehtiyaclarının müəyyənləşdirilməsi üzrə konkret bir mexanizmin tətbiq edilmədiyi verifikasiya zamanı müəyyən olunmuşdur. Bundan başqa, təlim ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə tələbələr arasında sorğuların keçirilməsi, nəticələrin analiz edilməsi və s. bu kimi işlərin yerinə yetirilməməsi də müsahibələr və sahə baxışı zamanı müəyyən edilmişdir.

**3.7.5 Filialda Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti**

Filialda akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı təmin edilməmişdir.

**3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti**

Filialda akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu aşkar olunmamışdır.

**3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**

ÖTH-də ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü qanunvericiliyin tələblərinə müvafiq aparıldığı bildirilmişdir. Professor-müəllim heyətinin tam ştat vahidi üzrə illik dərs yükü 500 saatdan az olmayaraq müəyyən edilmişdir. Kafedralar üzrə ştatlı müəllimlər arsında dərs yükü bölüşdürüldükdən sonra artıq qalan yük saathesabı qaydada ya kafedranın ştatda olan əməkdaşlarına, ya da kənar müəssisələrdən tədrisə cəlb edilən yüksək ixtisaslı mütəxəssislərə həvalə edilir. Verifikasiya zamanı saathesabı qaydada verilən dərs saatlarının 240 saatdan dəfələrlə çox olduğu müəyyən edilmişdir. Misal olaraq bəzi müəllimlərə 400 saatdan çox dərsin saathesabı qaydada verildiyini qeyd etmək olar. Digər nümunə kimi 0.5 ştat xarici əvəzçiliklə dərs aparan əməkdaşa isə 292 saat saathesabı qaydada dərs yükünün ayrıldığını da qeyd etmək olar. Baş mühasiblə müsahibə zamanı isə yalnız qanunvericilkdə nəzərdə tutulan saatlar (240) üzrə ödənişin həyata keçirildiyi bildirilmişdir.

**3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**

Filialda professor-müəllim heyətinin (daxili əvəzçiliklə çalışanlar nəzərə alınmaqla) tələbə sayına nisbəti 1/16 vəziyyətindədir.

**3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti**

Rəhbərlik və struktur bölmə rəhbərləri ilə müsahibələr zamanı Filialda ixtisaslı kadr çatışmazlığı problemli məsələ kimi xüsusi vurğulanmışdır. Cari dərs ili üçün tədris prosesində iştirak edən professor-müəllim heyətinin 85 faizindən çoxunun əsas iş yeri Filialdır. Yerində baxış zamanı elmi dərəcəsi və elmi adı olan professor-müəllim heyətinin sayının az olduğu müəyyən edilmişdir. Uyğun olaraq, müvafiq elmi dərəcə və elmi ada sahib professor-müəllim heyətinin cəlb edilməsi Filial üçün diqqət çəkən zəruri məqamlardandır.

**3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**

Filialda tədrisin təşkili üçün, əsasən, yaxın regiondan (Gəncə şəhərində fəaliyyət göstərən universitetlərdən) və baza universitetdən ixtisaslı kadrların cəlb olunduğu müəyyən edilmişdir. Bunun da əsas səbəbi kimi yerli elmi dərəcəli kadrların azlıq təşkil etməsi olduğu Filial tərəfindən yerində baxış müddətində qeyd edilmişdir.

**3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti**

Filialda differensiallaşdırılmış əməkhaqqı sistemi ilə bağlı mexanizm mövcud deyildir. Yalnız bayramlarla əlaqədar mükafatlandırmaların olduğu müəyyənləşdirilmişdir.

**3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor- müəllim heyətinin mövcudluğu vəziyyəti**

Filial əməkdaşları arasında Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil almış və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyəti mövcud deyildir.

*3.8. Tələbəyönümlü tədris*

**3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi**

Müsahibə zamanı qeyd olundu ki, təhsilalanlar fərdi tədris planlarının tərtib edilməsində iştirak edir; təhsilin birinci ilində bu proses, əsasən, tyutorların (akademik məsləhətçilərin) köməkliyi ilə həyata keçirilir. Yay tətilindən öncə tələbələr öz fərdi planlarını hazırlayıb sentyabr ayında - yeni dərs ilinin başlanmasından əvvəl təsdiqlənməsi və imzalanması üçün dekanlığa təqdim edir. Lakin tələbələrin fərdi tədris planlarına baxış zamanı tərtibedilmə tarixlərinin uyğun olmadığı müəyyənləşmişdir.

**3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi**

Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlər üçün tələbələrə sərbəst seçim hüququ verilir. Proses zamanı tələbələrin tyutorların və təhsilverənlərin köməkliyindən yararlana bilməsi müsahibələr və verifikasiya müddətində müəyyən edilmişdir.

**3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi**

Filialda təhsilverənlərin tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyi qismən təmin edilir. 1852 tələbə kontingentinə qarşılıq Filialda 3 nəfər tyutorun fəaliyyət göstərdiyini nəzərə alsaq, akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyi barədə uyğun yanaşmanın tətbiq olunduğunu müəyyən etmək mümkün olmamışdır.

**3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası**

Filialda tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikasına dair müvafiq hesabatlar mövud deyildir.

**3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası**

Filialda tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikasının izlənilməsi üzrə mexanizmlər mövcud deyildir.

**3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti**

Filialda tələbə rəylərinin öyrənilməsi məqsədi daşıyan hər hansı bir davamlı və işlək mexanizm mövcud deyildir. Müsahibələr zamanı tələbələr arasında sorğuların keçirildiyi bildirilsə də, bunu sübut edəcək hər hansı bir təsdiqedici sənədə rast gəlinməmişdir.

**3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti**

Müsahibələr zamanı tələbələrin məmnunluq səviyyəsini müəyyənləşdirmək üçün Filial tərəfindən mütəmadi olaraq şifahi sorğuların keçirildiyi qeyd olunmuşdur. Həmçinin tələbələrin rəhbərliyə birbaşa müraciət etmələri üçün müvafiq şəraitin mövcudluğu barədə məlumat verilmişdir. Belə ki, həftənin beş günü üzrə Filial direktorunun tələbələr üçün qəbul saatları keçirməsi müşahidə edilmişdir. Eyni zamanda imtahan nəticələrindən narazı qalan tələbələrin hüquqlarının qorunması məqsədilə imtahan sessiyanın keçirdiliyi müddət ərzində Apellyasiya Komissiyasının fəaliyyət göstərdiyi də vurğulanmışdır.

**3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti**

Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyətini qeyri-qənaətbəxş hesab etmək olar. Qeyd etmək lazımdır ki, tyutorlar bu sahədə müəyyən təcrübəsi olan ali təhsilli şəxslər arasından seçilir və rektorun müvafiq əmri ilə bu vəzifəyə təyin olunurlar. Bununla belə, Filialda 1852 nəfər tələbə müqabilində hal-hazırda 3 nəfər akademik məsləhətçi fəaliyyət göstərməkdədir. Mövcud tələbə/tyutor nisbətindəki uyğunsuzluq göstərilən akademik məsləhət xidmətinin keyfiyyətinə müsbət mənada təsir imkanları çox məhdud səviyyədədir. Tyutorların peşə kvalifikasiyalarının yüksəldilməsi üçün kursların təşkil edilməsi məqədəuyğun hesab olunur.

**3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti**

Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif üsul və vasitələrdən istifadə edilməklə (üzbəüz, onlayn və s.) kommunikasiyalar qurulur. Pandemiya zamanı proses onlayn formada müxtəlif tədris platformaları (əsasən, Microsoft Teams) üzərindən həyata keçirilsə də, hal-hazırda mövcud istiqamətdə proseslər, əsasən, üzbəüz təşkil olunur. Bundan əlavə, 1-ci kurs tələbələri üçün üzbəüz kommunikasiyadan əlavə whatsapp qrupu və ya  elektron poçt ünvanı (e-mail) açılır ki, bu mövcud vasitələrdən yararlanmaqla Filialda tələbələrin müəllim və tyutorlarla əlaqələri reallaşdırılmaqdadır.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

Filialda sağlamlıq imkanları məhdud şəxslər üçün infrastruktur uyğun olmasa da, onların cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması üzrə müvafiq yanaşmalar mövcuddur və onların təhsil hüququ təhsilin bütün səviyyələri üzrə digər şəxslərlə bərabər formada təmin edilir.

### 3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

Müsahibələr zamanı qeyd olundu ki, sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı istiqamətində müəyyən tədbirlər həyata keçirilir. Belə ki, sosial həssas qrupa aid edilən tələbələrin bir qisminin gündəlik qida xərcləri Filialın THİK tərəfindən qarşılanır.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Dövlət sifarişi ilə, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, əyani formada təhsil alan tələbələrə onların ümumi orta müvəffəqiyyət göstəricilərinə görə ("əlaçı", "həvəsləndirici" və ya "adi") təqaüd təyin olunur. Verifikasiya zamanı məlum olmuşdur ki, Filialda Təqaüd Komissiyası fəaliyyət göstərmir. Eyni zamanda istər dövlət sifarişi, istərsə də əlavə təqaüd yerlərinin bölgüsü ilə bağlı nöqsanların olduğu müəyyən edilmişdir. Belə ki, qiyabi təhsilalma formasında dövlət sifarişli yerlər təqaüd yerləri kimi nəzərdə tutulmamışdır. Əlavə təqaüd yerlərinin bölgüsünün (ixtisaslar və kurslar üzrə) hansı prinsiplər üzrə aparıldığı qeyri-müəyyən olaraq qalmaqdadır. Bununla bağlı fakültə dekanına ünvanlanan sual dəqiq cavablandırlmamışdır. Qeydə alınan mövcud çatışmazlıqlar tələbələrə təqaüd imkanlarının yaradılmasında müəyyən problemlərin olmasının göstəricisidir.

## *3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

Filialın ÖTH-də təhsil proqramlarının monitorinqi və yenilənməsi ilə bağlı heç bir məlumat verilməmişdir. Bundan başqa, yerində baxış zamanı təhsil proqramlarının nəticələrinin monitorinqi üzrə strategiya və fəaliyyət planının, eləcə də təhsil proqramlarının illik özünü qiymətləndirmə hesabatlarının aparılmadığı da müəyyən edilmiş digər məsələlərdəndir.

## *3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

Filialda Karyera mərkəzi fəaliyyət göstərmədiyi üçün mövcud indikatoru ölçülməsi mümkün olmamışdır.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Filialda karyera mərkəzi olmadığına görə tələbə və məzunlara karyera məsləhət xidməti göstərilmir. Mərkəzin yaradılmasına ehtiyac vardır.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Filialda məzunların əmək bazarında iştirakının izlənilməsi ilə bağlı işlək mexanizm, o cümlədən fakültə və kafedralarda məzunların əmək fəaliyyəti haqqında sistemli baza mövcud deyildir.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Filialda məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi ilə bağlı heç bir tədbir görülməmiş, məzunlar arasında məmnuniyyət və ehtiyac sorğuları keçirilməmişdir.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Filialda məzunlar haqqında ümumi baza mövcuddur. Bununla belə, məzun bazasının hansı aralıqlarda yenilənməsi, mütəmadi olaraq monitorinqinin keçirilməsi və izlənilməsi mexanizmi mövcud deyildir.

## 4. ELMİ TƏDQİQAT

*4.1. Elmi-tədqiqat strategiyası*

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

ÖTH-də “Bakı Dövlət Universitetinin Qazax Filialının 2021-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyası” qeyd olunsa da, yerində baxış zamanı Filial direktorluğunun 30 dekabr 2022-ci il tarixli iclasının 15 nömrəli protokolu ilə təsdiq edilmiş “Bakı Dövlət Universitetinin Qazax Filialının 2022-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyası” təqdim edilmişdir. Strategiyada Filialda elmi tədqiqatın təşkili, həyata keçirilməsi, elmi nəticələrin yayılması, təbliği, tədris prosesinə inteqrasiyası və tədqiqatçılıq sahəsində bacarıq və vərdişlərin fasiləsiz olaraq inkişaf etdirilməsinin ümumi yanaşmaları, əsas prinsipləri və mexanizmi əks etdirildiyi qeyd olunur.

ÖTH-də elmi-tədqiqat fəaliyyətinin Filialın inkişafının prioritet istiqamətlərindən biri və mövcud kadr hazırlığı istiqamətlərində fundamental və tətbiqi tədqiqatlar əsasında təlim-tədris və tərbiyə prosesinin fasiləsiz təkmilləşdirilməsini təmin edildiyi qeyd olunsa da, bu sahədə fəaliyyət planı tərtib edilməmişdir.

Strategiyanın hazırlanmasında Filialın müvafiq struktur bölmələrinin iştirakı qeyd olunsa da, Filial əməkdaşları ilə müsahibə prosesində və yerində baxış zamanı məlum oldu ki,

fakültə və kafedralar elmi-tədqiqat sahəsində Strategiyanın hazırlanması prosesindən və mövcud olmasından məlumatlı deyillər.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

Qeyd etmək lazımdır ki, SİP-də Filialın missiyası müəyyən edilmədiyindən Elmi-tədqiqat strategiyasının BDU-nun Qazax Filialının missiyasına və hədəflərinə uyğunluğunun qiymətləndirilməsi mümkün olmamışdır.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

BDU-nun Qazax Filialının elmi-tədqiqat siyasəti öz əksini 2022-2030-cu illəri əhatə edən Elmi-tədqiqat strategiyasında öz əksini tapmışdır. Strategiyanın 2.1. bəndində "dövlətin elm siyasətinə uyğun olaraq BDU-nun Qazax Filialı elmi-tədqiqat fəaliyyətinə və innovasiyaların tətbiqinə cəmiyyətin və dövlətin maraqları çərçivəsində şəxsiyyətin hərtərəfli inkişafı üçün ölkənin elmi-tədqiqat və təsərrüfat müəssisələri ilə qarşılıqlı əlaqədə Filial tərəfindən həyata keçirilən vahid proses kimi baxır, elmi-tədqiqatların səmərəliliyini və yüksək keyfiyyətini ali təhsil müəssisəsinin fəaliyyətinin vacib prioritetlərindən biri hesab edir". Filialın Elmi-tədqiqat Strategiyası BDU-nin Elmi-tədqiqat strategiyası əsasında hazırlanmışdır. Strategiyanın 2.1. bəndində müvafiq korrektə etmək unudulmuşdur: "BDU elmi-tədqiqat sahəsində siyasətini formalaşmasını strateji idarəetmənin əsaslarından biri kimi nəzərdə tutur".

Strategiyanın əsas məqsədi Filialın elmi və innovasion fəaliyyətini (elm və təhsilin inteqrasiyası, tədris prosesi ilə elmi tədqiqatın vəhdətinin təmin edilməsi, tədris prosesində tədqiqat komponentinin genişləndirilməsi əsasında ali təhsilli mütəxəssislərin və yüksək ixtisaslı elmi kadrların hazırlanma keyfiyyətinin yüksəldilməsi; Filialda müasir standartlara uyğun innovasion elmi mühütin formalaşdırılması; elmi və elmi-pedaqoji potensialın inkişaf etdirilməsi; təşkilati strukturunun və elmi infrastrukturunun müasirləşdirilməsi; innovativ tədqiqat layihələrinin dəstəklənməsi üçün Filialın maddi-texniki bazasının genişləndirilməsi və modernləşdirilməsi; respublikada elm, texnika və texnologiyanın inkişafının prioritet istiqamətləri çərçivəsində fundamental və tətbiqi tədqiqatların səmərəliliyinin artırılması; elmi-tədqiqat sahəsində Filialın yüksək rəqabətqabililiyyətinin təmin edilməsi, elmi-tədqiqat işlərinin səviyyəsinin beynəlxalq səviyyəyə qaldırılması; ölkənin davamlı sosial-iqtisadi inkişafına elmi dəstəyin verilməsidir.

Strategiyada elmi-tədqiqatın Filialın inkişafının prioritet istiqamətlərindən biri olduğu və kadr hazırlığı istiqamətlərində fundamental və tətbiqi tədqiqatlar əsasında təlim-tədris və tərbiyə prosesinin fasiləsiz təkmilləşdirilməsini təmin edir.

ÖTH-dən və müvafiq sahənin struktur bölmə rəhbərləri ilə müsahibə zamanı məlum oldu ki, heyət üzvləri elmi-tədqiqat strategiyası, elmi-tədqiqat siyasəti, prioritet tədqiqat sahələri və istiqamətləri ilə tanış deyillər. Filialda elmi-tədqiqat strategiyasına müvafiq olaraq fəaliyyət planının və təşviqat mexanizminin hazırlanması məqsədəuyğun olardı.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

“2021-2030-cu illər üzrə BDU-nun Qazax Filialının Strateji inkişaf planı”nda qeyd edildiyi kimi Filialın elm-təhsil müəssisəsi kimi inkişafının ən mühüm hissəsi olan uğurlu elmi fəaliyyətin təşkili professor-müəllim heyəti və tədqiqatçıların bilik, bacarıq və tədqiqatçılıq səriştəsinə əsaslanır. Bu baxımdan Filialda aparılan elmi-tədqiqatların əsas istiqamətləri aşağıdakılardır:

- Filialda akademik heyət və alimlərin, habelə tələbə, magistrant və doktorantların inkişafına təkan verən ən yüksək səviyyəli elmi mühit və tədqiqatların aparılmasına şərait yaratmaq;

- Beynəlxalq standartlara cavab verən və rəqabətədavamlı tədqiqatlar aparmaq;

- Faydalı təcrübə qazanmaq məqsədi ilə mövcud elmi-tədqiqat institutlarını, mərkəzlərini və laboratoriyalarını yenidən qurmaq və dövrün tələblərinə uyğun olaraq yenilərini yaratmaq;

- Respublikanın və xarici ölkələrin yüksək reytingli ali məktəb və tədqiqat mərkəzləri ilə, o cümlədən beynəlxalq elmi təşkilatlarla elm və innovasiyalar sahəsində sıx əlaqələr yaratmaq, yüksək səviyyəli beynəlxalq əməkdaşlıq və intensiv təcrübə mübadiləsi aparmaq.

Strategiya BDU-nun Elmi-tədqiqat strategiyası üzərində hazırlandığı üçün Filialın infrastrukturu, yerli şəraiti, resursları nəzərə alınmamışdır. Strategiyada elmi-tədqiqat sahəsində Filialın güclü, zəif tərəfləri, riskləri və təhdidləri müəyyən olunmamışdır. Belə ki, Strategiyada beynəlxalq standartlara cavab verən və rəqabətədavamlı tədqiqatlar aparmaq, respublikanın ali məktəb və mərkəzləri ilə, o cümlədən beynəlxalq elmi təşkilatlarla elm və innovasiyalar sahəsində sıx əlaqələr yaratmaq istiqamətləri qeyd olunsa da, Filialda və kafedralarda bu sahədə iş aparılmadığı müşahidə olunmuşdur.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Strategiyanın məqsədlərində elm və təhsilin inteqrasiyası, tədris prosesi ilə elmi-tədqiqatın vəhdətinin təmin edilməsi, tədris prosesində tədqiqat komponentinin genişləndirilməsi əsasında elmi təhsilli mütəxəssislərin və yüksək ixtisaslı elmi kadrların hazırlanma keyfiyyətinin yüksəldilməsi nəzərdə tutulmuşdur.

Bununla belə, Elmi-tədqiqat strategiyasında Filialda akademik heyət, tələbə və magistrantların inkişafına təkan verən ən yüksək səviyyəli elmi mühitin və tədqiqatların aparılmasına şəraitin yaradıması, elmi-tədqiqata cəlb edilməsi, milli və beynəlxalq elmi-tədqiqat proqramlarında, müsabiqələrdə, qrant üzrə tədqiqatlarda iştirakı, magistratura yolu ilə elmi kadr hazırlığının keyfiyyətcə yeni səviyəyə qaldırılması, elmin, təhsilin və istehsalın inteqrasiyasının təmin edilməsi, təhsilalanlar üçün kommunikasiya platformasının yaradılması, təhsilalanların elmi əsərlərinin beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (Web of Science, Scopus, Google Scolar və s) daxil olan dərgilərdə dərc edilməsinə təşviq edilməsi və s. məsələlər nəzərdə tutulmuşdur.

Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının daha da səmərəli həyata keçirilməsi üçün tələbələrin müxtəlif beynəlxalq layihələr çərçivəsində tədqiqat yönümlü start-up layihələrində iştirakının təmin edilməsi, xarici ölkələrin nüfuzlu universitetlərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığı prosesinə cəlb olunması tövsiyə olunur.

**4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti**

Strategiyanın 9.2.3. bəndinə müvafiq olaraq Filialın yüksək elmi göstəricilərə malik struktur bölmələrinin və əməkdaşlarının dəstəklənməsi (maddi həvəsləndirmə mexanizminin işlənib hazırlanması və tətbiqi, prespektivli elmi layihələrin universitetdaxili rəqabətli maliyyələşdirilməsi sisteminin tətbiqi və s.) nəzərdə tutulmuşdur. Müsahibələr və yerində baxış zamanı məlum oldu ki, il ərzində 3-dən artıq yerli və beynəlxalq indeksli jurnallarda məqaləsi dərc edilmiş, o cümlədən tədris metodiki vəsaiti və monoqrafiyası nəşr olunmuş professor-müəllim heyətinə universitet rəhbərliyi tərəfindən stimullaşdırıcı tədbir kimi pul mükafatı təqdim olunur.

**4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti**

Müsahibələr zamanı Filial heyətinin Elmi-tədqiqat strategiyası barədə məlumatlı olmadığı müəyyən edilmişdir. Elmi-tədqiqat strategiyası müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatan vəziyyətdə deyildir.

**4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti**

Müsahibələr və sənədlərə baxış zamanı maraqlı tərəflərin Elmi-tədqiqat strategiyasının hazırlanmasında iştirakının təmin edilmədiyi müəyyən edilmişdir. Strategiya Filialın elmi potensialı, infrastrukturu nəzərə alınmadan BDU-nun elmi-tədqiqat strategiyası üzərində hazırlanmışdır.

*3.11. Tədqiqat resursları*

**4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti**

Elmi tədqiqatlar, əsasən, Filialın müvafiq kafedralarında və mövcud olan iki laboratoriyasında aparılır. Elmi-tədqiqat işlərinin aparılması üçün maddi və texnoloji resurslar qeyri-qənaətbəxşdir. Belə ki, Filialın büdcəsindən elmi-tədqiqat məqsədlərinin həyata keçirilməsi üçün heç bir vəsait nəzərdə tutulmamışdır.

Filialda 2016/2017–2022/2023-cü tədris illərində elmi-tədqiqat işlərinin inkişaf dinamikası aşağıdakı kimi olmuşdur:




Diaqramdan göründüyü kimi, 2016/2017 - 9 mövzu; 2017/2018 – 33 mövzu; 2018/2019 - 43 mövzu; 2019/2020 - 53 mövzu; 2020/2021 - 54 mövzu; 2021/2022 - 68 mövzu, cəmi: 260 mövzu işlənmişdir.

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Filialda elmi-tədqiqatın əsas iştirakçıları kafedralarda çalışan professor-müəllim heyəti və müqavilə əsasında çalışan daxili və kənar əvəzçilərdir.

| Tədris illəri | Elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) |
|---|---|
| **2016/2017** | 52% |
| **2017/2018** | 47% |
| **2018/2019** | 36% |
| **2019/2020** | 43% |
| **2020/2021** | 40% |
| **2021/2022** | 43% |
| **2022/2023** | 62% |

Kafedralarda elmi-tədqiqat işləri illər üzrə normativə uyğun olaraq hazırlanmış və hesabatlarda öz əksini tapmış və protokollaşdırılmışdır.

Filialda professor-müəllim heyətinin Google Scholar bazasında şəxsi profillərinin yaradılması və ORCID identifikasiya nömrəsinin alınması tövsiyə olunur.

Qeyd edək ki, yerində baxış zamanı Filial üzrə professor-müəllim heyətinin yerli və xarici ölkələrin dövri nəşrlərində çap olunan elmi məqalə, tezis, monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və metodik vəsaitləri özündə əks etdirən ümumiləşdirilmiş elmi-əsərlər haqqında məlumatlar təqdim edilməmişdir. Təqdim edilən məlumatlar ayrı-ayrı kafedralar və illər üzrə hesabatları özündə əks etdirir. Bu səbəbdən elmi-tədqiqat işinin və istiqamətinin idarəolunmasında koordinasiya və nəzarətin effektivliyinin artırılmasına xüsusi diqqətin yetirilməsi tövsiyə edilir.

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Filialda magistrantlar, buraxılış işi yerinə yetirən bakalavrlar aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçılar hesab olunur. Tələbə və magistrantlar elmi fəaliyyətə ancaq TEC xətti ilə cəlb edilirlər. Filialın illər üzrə Elmi hesabatlarında TEC-in xətti ilə konfrans və seminarlar təşkil edilməsi, tələbə elmi dərnəklərinin hesabatlarının kafedralarda dinlənilməsi ilə bağlı məsələlər yer alsa da, yerində baxış zamanı bununla bağlı sənədlərə, proqram və broşurlara rast gəlinmədi.

Filialda gənc alimlərin təşkilatlanması, koordinasiyası, stimullaşdırılması, tədqiqat bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müvafiq seminarların, konfransların, tədbirlərin təşkili istiqamətində fəaliyyəti tənzimləmək üçün Gənc alim və tədqiqatçılar şurasının yaradılması məqsədəuyğun olardı.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

Filialda hər hansı beynəlxalq elmi məlumat bazasına çıxış mövcud deyildir. Beynəlxalq elmi bazalara girişin təmin edilməsi üçün Universitetin memorandumlar imzalaması və müxtəlif nəşriyyatlarla üzvlüklə bağlı razılıqlar əldə etməsii məqsədəuyğundur.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Müsahibə və yerində baxış zamanı məlum olmuşdur ki, Filialda nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlər mövcud deyildir. Vurğulamaq lazımdır ki, Filialda il ərzində 3-dən artıq yerli və beynəlxalq indeksli jurnallarda məqaləsi dərc olunmuş və tədris-metodiki və monoqrafiyası nəşr olunan professor-müəllim heyətinə universitet rəhbərliyi tərəfindən stimullaşdırıcı tədbir kimi pul mükafatı təqdim olunur.

Filialda akademik heyətin reytinq qiymətləndirilməsi və balların hesablanması haqqında təlimatın, reytinq ballarına uyğun olaraq professor-müəllim heyətinin əmək haqlarına əlavələrin edilməsi mexanizminin olması, tədqiqatçıların uzunmüddətli beynəlxalq tədqiqat proqramlarında iştirakına dəstək, tədqiqat məqsədli səfərlərinə maddi dəstəyin verilməsi məqsədəuyğundur.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Müsahibə və yerində baxış zamanı, Filial büdcəsinə elmi-tədqiqat fəaliyyətindən hər hansı gəlirin daxil olmadığı müəyyən edilmişdir.

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Filialın Azərbaycan Dövlət Aqrar Universiteti, Bakı Dövlət Universiteti, Təhsil İnistitutu, AMEA-nin Coğrafiya və Biologiya İnistitutları, Bandırma Onyedi Eylül Üniversiteti (T.C) ilə əməkdaşlıq əlaqələri mövcuddur.

Aşağıdakı cədvəldə Filialın tədqiqat sahəsində əməkdaşlıq etdiyi elmi müəssisə və təşkilatların illər üzrə sayı təsvir edilmişdir:

| İllər | Tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatlar | Sayı |
|---|---|---|
| **2016/2017** | Azərbaycan Dövlət Aqrar Universiteti | 1 |
| **2017/2018** | Bakı Dövlət Universiteti | 5 |
| | Azərbaycan Dövlət Aqrar Universiteti | 1 |
| **2018/2019** | Bakı Dövlət Universiteti | 7 |
| | Azərbaycan Dövlət Aqrar Universiteti | 1 |
| | Təhsil İnistitutu | 1 |
| **2019/2020** | Bakı Dövlət Universiteti | 7 |
| | Azərbaycan Dövlət Aqrar Universiteti | 1 |
| | Təhsil İnistitutu | 1 |
| **2020/2021** | Bakı Dövlət Universiteti | 7 |
| | Azərbaycan Dövlət Aqrar Universiteti | 1 |
| | Təhsil İnistitutu | 1 |
| **2021/2022** | Bakı Dövlət Universiteti | 7 |
| | Azərbaycan Dövlət Aqrar Universiteti | 1 |
| **2022/2023** | Təhsil İnistitutu | 1 |
| | AMEA. Coğrafiya İnistitutu | 2 |
| | AMEA. Biologiya İnistitutu | 1 |
| | Bandırma Onyedi Eylül Üniversitesi (T.C) | 1 |

Müsahibə və yerində baxış zamanı Filial tədqiqat sahəsində müxtəlif elmi müəssisə və təşkilatlarla əməkdaşlıq əlaqələrində artım dinamikasının olmadığı məlum olmuşdur. ÖTH-də zəruri hallarda bir sıra prioritet istiqamətlər üzrə tədqiqatlar aparmaq, yeni texnologiyalarla tanış olmaq və təcrübə qazanmaq məqsədilə Filialın bəzi əməkdaşları və doktorantları respublikanın, regionun və xarici ölkələrin aparıcı elm və təhsil mərkəzlərinə qısa və uzun müddətli elmi ezamiyyətə və stajkeçməyə göndərilməsi qeyd olunsa da, müsahibə və yerində baxış zamanı bununla bağlı heç bir məlumata rast gəlinməmişdir.

### *3.12. Elmi-tədqiqat fəaliyyəti*

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Filialda elmi-tədqiqat işlərinin aparılması və təşkili qaydaları onun nizamnaməsi ilə müəyyənləşdirilir. Elmi fəaliyyətin təşkili və həyata keçirilməsi Tədris və elmi işlər üzrə struktur tərəfindən idarə olunur. Yerində baxış zamanı struktur vahidinin illik fəaliyyət planı mövcud olsa da, elmi-tədqiqat fəaliyyətinin idarə edilməsində müvafiq strategiyaya uyğun illik fəaliyyət planının mövcud olmadığı müəyyənləşdi.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Filialda AR ETN-nin əmrləri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən Ali təhsil müəssisələrində keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların siyahısı"na əsasən, müxtəlif mövzularda konfranslar keçirilmişdir:

***Son altı ildə keçirilən konfranslar:***

| İllər | Beynəlxalq konfrans | Respublika konfransı | Filial daxili konfrans |
|---|---|---|---|
| 2016/2017 | - | 1 | 2 |
| 2017/2018 | - | - | 4 |
| 2018/2019 | 1 | - | 2 |
| 2019/2020 | - | - | - |
| 2020/2021 | - | 1 | - |
| 2021/2022 | 1 | 2 | |
| CƏMİ | 2 | 4 | 8 |

Filialda 2016/2017-ci tədris ilində 1 respublika, 2 Filial daxili, 2017/2018-ci tədris ildə 4 Filial daxili, 2018/2019-cu tədris ilində 1 beynəlxalq, 2 Filialdaxili, 2019/2020-ci ildə heç bir, 2020/2021-ci tədris ilində 1 respublika, 2021/2022-ci tədris ilində 1 beynəlxalq, 2 respublika səviyyəli konfranslar təşkil olunmuşdur.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Filialda keçirilən elmi-tədqiqat xarakterli tədbirlərdə, əsasən, Azərbaycanın digər elm və ali təhsil müəssisələrindən tədqiqatçılar iştirak etmişdir və müştərək konfrans materialları nəşr olunmuşdur. Aşağıda qeyd olunan cədvəldə elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər təhsil müəssisələrindən iştirak etmiş tədqiqatçıların illər üzrə say dinamikası öz əksini tapmışdır.

| İllər | Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. sayı | Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrdən iştirak etmiş tədqiqatçıların sayı |
|---|---|---|
| 2016/2017 | 3 | 10 |
| 2017/2018 | 4 | 9 |
| 2018/2019 | 3 | 96 |
| 2019/2020 | 2 | 13 |
| 2020/2021 | 1 | 46 |
| 2021/2022 | 2 | 131 |

**4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti**

237 gənc tələbə və tədqiqatçı 2016-2022-ci illər ərzində konfrans, seminar, görüş kimi elmi-tədqiqat xarakterli tədbirlərdə iştirak etmişlər. Filialın ÖTH-də gənc tələbə-tədqiqatçıların elmi-tədqiqat xarakterli tədbirlərdə illər üzrə iştirak dinamikası öz əksini tapmasa da, müvafiq cədvəl üzrə məlumatlar yerində baxış zamanı müəyyən edilmişdir.

| İllər | Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə iştirak etmiş gənc təhsilalan-tədqiqatçıların sayı |
|---|---|
| **2016/2017** | 8 |
| **2017/2018** | 4 |
| **2018/2019** | 53 |
| **2019/2020** | 32 |
| **2020/2021** | 58 |
| **2021/2022** | 82 |

**4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti**

Hesabat dövründə Filialın beynəlxalq qrant layihələrində iştirakı qeydə alınmamışdır.

**4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti**

Hesabat dövründə Filialda elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi qeydə alınmamış və kommersiallaşdırılma mexanizmi hazırlanmamışdır. Bu istiqamətlər üzrə mexanizimlərin hazırlanması tövsiyə olunur.

**4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti**

Filialda müvafiq indikatora uyğun olaraq birgə və müvafiq fəaliyyətlərin təşfiqi mexanizimlərinin mövcud olmadığı müsahibə və yerində baxış müddətində müəyyən edilmişdir.

**4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti**

Filialda müxtəlif elmi müəssisə və təşkilatlar arasında tədqiqat sahəsində əməkdaşlıq əlaqələri və hər hansı birgə tədqiqat proqramı həyata keçirilməyib. Qeyd olunan məqam Filialın ÖTH-yə əlavə olunan sənədlərdə də öz təsdiqini tapmamışdır.

**4.3.9 Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti**

Filialda tədqiqatçılarının müxtəlif elmi-tədqiqat şəbəkələrində iştirakına dair komissiya heyətinə zəruri sənədlər təqdim edilməmişdir. Filialın ÖTH-yə əlavə olunan sənədlərdə Beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak etmiş tədqiqatçıların sayı qeyd olunsa da, bunu hansı mənbəyə əsasən qeyd olunduğu məlum olmamışdır.

| İllər | Beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak etmiş tədqiqatçıların sayı |
|---|---|
| 2016-2017 | 2 |
| 2017-2018 | 2 |
| 2018-2019 | 6 |
| 2019-2020 | 7 |
| 2020-2021 | 10 |
| 2021-2022 | 7 |

Qeyd edək ki, beynəlxalq elmi-tədqiqat şəbəkələri dedikdə müxtəlif elm və tədqiqat sahələri üzrə dünya elm ictimaiyyətini birləşdirən cəmiyyətlər, institutlar və s. nəzərdə tutulur. Məsələn, International Union of Geological Sciences, International Association of Hydrological Sciences, Association of Applied Geochemists və s.

### 4.3.10 Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Yerində baxış zamanı məlum oldu ki, Filialda yerinə yetirilən elmi-tədqiqat işlərinin nəticələri daha çox məqalə formasında çap olunur. Ayrı-ayrı fənn silabuslarını incələdikdə aydın oldu ki, qeyd olunan ədəbiyyat siyahısında daha çox kitablar öz əksini tapmışdır. Tədqiqat işlərinin nəticələrindən mühazirə və seminarlarda istifadə olunması, mövzu ilə əlaqəli məqalə və tədqiqat işlərinin əlavə tədris materialı kimi tələbələrə yönləndirilməsi tövsiyə olunur.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

Filialda professor-müəllim heyətinin elmi-tədqiqat materialları ayrı-ayrı təhsil müəssisələrinin dövri elmi nəşrlərində çap etdirilmişdir.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

Filialda professor-müəllim heyətinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələr və onlara istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası barədə məlumat əldə etmək mümkün olmamışdır.

Filialda professor-müəllim heyətinin Google Scholar bazasında elmi məqalələrə istinad etmə sayının (illər üzrə) müəyyən edilməsi məqsədəuyğun olardı.

**4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti**

Filialda magistratura səviyyəsi üzrə bəzi ixtisasların ixtisaslaşmalarında tədqiqat yönümlü fənlər tədris olunur. Belə ki, 060113 İnformatika müəllimliyi ixtisasının İnformatikanın tədrisi metodika və metodologiyası ixtisaslaşmasında “Elmi tədqiqat işləri”, 060805. Sosial iş ixtisasının Həyat fəaliyyətinin  müxtəlif dairələrində sosial iş ixtisaslaşmasında “Elmi tədqiqtın təşkili və qiymətləndirilməsi”, 060113 Tarix müəllimliyi ixtisasının Tarix fənnin tədrisi metodikası və metodologiyası ixtisaslaşmasında “Tarixin  tədqiqat üsulları”, “Tarix və onun metodologiyası”, “Tarixin tədrisi üsulları  və onun istiqamətləri” fənləri tədris olunur.

Bundan əlavə, ikinci tədris ilinin yaz semestrində bütün ixtisas üzrə ixtisaslaşmalarda elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr təşkil olunur.

060201 Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası, 060803 Turizm və otelçilik, 060117. Məktəbəqədər təlim tərbiyənin metodikası və metodologiyası, 060115 ibtidai sinif müəllimliyi ixtisasının İbtidai sinifdə tədrisin metodikası və metodologiyası ixtisaslarının tədris planlarında tədqiqatyönümlü fənlər nəzərə alınmayıb. Magistratura səviyyəsindəki bütün ixtisaslarda dissertasiya işinin yerinə yetirilməsi nəzərdə tutulduğundan tədqiqatyönümlü fənlərin bütün ixtisaslar üzrə tədris olunması məqsədəuyğundur.

Filialda ali təhsil pilləsinin doktorantura səviyyəsi üzrə təhsil xidmətləri təşkil edilməmişdir.

**4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti**

Müsahibə və yerində baxış zamanı Filialda akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının artıtılması üçün təlimlər, seminarlar və müxtəlif sistematik tədbirlərin həyata keçirilmədiyi müəyyən edilmişdir.

**4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu**

Filialda doktorantura proqramlarına təşviq edilmə və doktorantura məzunlarının işə cəlb olunması  siyasəti mövcud deyildir. Yerində baxış zamanı gənc müəllimlər arasında ayrı-ayrı təhsil müəssisələrinin doktoranturasında təhsil aldıqları müəyyən olunmuşdur. Aşağdakı cədvəldə Filialda 2016-2022-ci illər ərzində işə cəlb olunmuş doktorant və dissertantların sayı ilə bağlı məlumatlar öz əksini tapmışdır.

| İllər | Filialda işə cəlb edilmiş doktorantların və dissertanların sayı |
|---|---|
| 2016/2017 | 1 |
| 2017/2018 | 4 |
| 2018/2019 | 1 |
| 2019/2020 | 0 |
| 2020/2021 | 0 |
| 2021/2022 | 0 |

**4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti**

Filialda bakalavriat və magistratura səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində 2 elmlər doktoru və 1 professor iştirak edir. Bu isə filial üzrə tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının 5%-dən az oduğunu göstərir. Tədris prosesinin təşkilinə elmlər doktoru və professorların cəlb edilməsi məqsədilə Filialda müvafiq mexanizmlərin işlənilməsi tövsiyə olunur.

**4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**

Filialda elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətə olan nisbətinin dəyişmə vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır. Filialda elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti aşağıda verilmiş cədvəldəki kimidir.

| Kafedralar | Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi |
|---|---|
| Riyaziyyat və informatika | 20% |
| Dil, ədəbiyyat və onun tədrisi metodikası | 10% |
| Pedaqoji fənlər | |
| İctimai və təbiət fənləri | 4% |

**4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu**

Filialda fəlsəfə və elmlər doktoru proqramları üzrə kadr hazırlığı aparılmadığı üçün elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyası müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu barədə hər hansı rəyin verilməsini mümkün etmir.

**4.3.19 Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

Filialda elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcud olmadığı müəyyən edilmişdir.

**4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili**

Müvafiq təhsil səviyyəsi üzrə kadr hazırlığı aparılmadığından indikator üzrə qiymətləndirmənin aparılması mümkün olmamışdır.

*4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

**4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu**

Filialda antiplagiat və akademik dürüstlük siyasətinin mövcud olmadığından indikatorun qiymətləndirilməsi mümkün olmamışdır.

**4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu**

Filialda Antiplagiat Proqramı olmadığından köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu indikatorunu qiymətləndirmək mümkün olmamışdır.

Yerində baxış zamanı məlum oldu ki, magistrlik dissertasiyalar antiplagiat proqramından keçirilmir. Lakin magistrlik dissertasiyası işində elmi plagiatın aşkar edilməsinə dair arayışa fakültə dekanı, müvafiq kafedra müdiri, iddiaçının elmi rəhbəri, direktorluğun katibi, rəyçi imza çəkir. Dissertasiya işlərində köçürülmə hallarının hansı formada aşkar olunmasında olan qeyri-müəyyənliyin və akademik dürüstlüyün tələblərinin gözlənilməməsinin təmin olunması tövsiyə edilir.

**4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi**

Filialda antiplagiat sistemi olmadığından təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsini ölçmək mümkün olmamışdır.

ÖTH-də qeyd edilir ki, Filialda keçirilən konfransların materialları nəşr olunmazdan əvvəl BDU-ya göndərilir. Orada Plagiat əleyhinə xüsusi proqramlar vasitəsi ilə məqalə və tezislər yoxlanılır və müsbət rəy verildikdən sonra nəşri həyata keçirilir.

## 5. İDARƏETMƏ SİSTEMİ

*5.1. İdarəetmə orqanları*

Filialın idarəedilməsi baza universitetinin Nizamnaməsi və Bakı Dövlət Universitetinin rektorunun 2016-cı il 11 iyul tarixli (protokol № 6) qərarı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq aparılır. Əsasnaməyə müvafiq qaydada Direktorluq Filialın fəaliyyətinin bütün

məsələlərinə kollegial qaydada baxır və operativ olaraq həll edir. Filialın cari fəaliyyətinə rəhbərliyi isə direktor həyata keçirir. Mövcud Əsasnamədə Filiala ümumi rəhbərliyi direktorun sədr olduğu Elmi Şura və Direktoryanı Şuranın həyata keçirdiyi qeyd olunsa da, həmin orqan fəaliyyət göstərmir. Filialın idarəetmə strukturunun strateji hədəflərə, ümumi idarəetmə prinsiplərinə və təhsil müəssisələrinin idarəetmə strukturunun qurulması prinsiplərinə uyğunluq baxımından yenidən nəzərdən keçirilməsi və struktur dəyişikliyinin aparılması tövsiyə olunur. Filialın struktur sxemi mövcud deyildir. Filialın idarəetmə strukturunun optimallaşdırılmasına ehtiyac vardır. Pedaqoji fakültədə bakalavriat səviyyəsi üzrə 17 ixtisas və magistratura səviyyəsi üzrə 7 ixtisaslaşma üzrə 1800-dən çox tələbə təhsil alır. Kafedraların ixtisaslaşmasında, tədris olunan fənlərin bölgüsünün aparılmasında qeyri-müəyyənliklər vardır. İctimai və təbiət fənlərinin bir kafedrada birləşməsi və kafedra üzrə dərs yükünün 28 min saatdan çox olması tədrisin keyfiyyətinin izlənməsinə imkan vermir.

**5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət /iş planlarının mövcudluğu vəziyyəti**

Filialda Tədris Metod Şura, TGT, THİK kimi ictimai əsaslarla fəaliyyət göstərən idarəetmə orqanları fəaliyyət göstərir. Lakin verifikasiya zamanı bu idarəetmə orqanlarının əsasnamələrinə və fəaliyyət planlarına rast gəlinmədi.

**5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti**

Filialın Direktorluğu aşağıdakı kimi formalaşmışdır: sədr (direktor), Elm və tədris işləri üzrə direktor müavini, Tədris şöbəsinin müdiri, fakultə dekanı, digər struktur bölmə rəhbərləri, Tədris metodiki Şuranın sədri, Filial Həmkarlar İttifaqı Komitəsinin sədri, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Tələbə-Gənclər Təşkilatının sədri, Tələbə Elmi Cəmiyyətinin sədri. Qeyd edilməlidir ki, işəgötürənlərin və ictimaiyyət nümayəndələrinin idarəetmə orqanlarında təmsil olunmaları haqqında məlumat təqdim edilmədi.

**5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti**

Direktorluq fəaliyyət planı əsasında mütəmadi olaraq öz iclaslarını, yığıncaqlarını, müvafiq tədbirləri keçirir, əldə edilmiş nəticələri təhlil edərək gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirirlər. Direktorluqda müvafiq struktur bölmələrin hesabatları dinlənilir.

**5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti**

Filial rəhbərliyi strateji məsələlərlə bağlı qərarların baza universitetində qəbul edildiyini bildirdirmişdir. Direktorluqda məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun işlənilməsinə və təkmilləşdirilməsinə ehtiyac vardır.

**5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti**

İdarəetmə orqanlarında qanunvericiliyin, normativ-hüquqi aktların tələblərinə uyğun olan qərarlar qəbul edilir. Qəbul olunmuş qərarlar Filialın struktur bölmələrinə kağız daşıyıcılarında ötürülür. Rəsmi sayt fəaliyyət göstərmədiyindən ictimaiyyətin qərarlar haqqında tam məlumatlandırılması mümkün deyildir. Sosial media hesabında (facebook) və yerli kütləvi informasiya vasitələrində yayılan məlumatların isə coğrafiyası geniş deyildir.

**5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

Filialda qəbul edilmiş qərar və əmrlər kağız daşıyıcılarda digər struktur bölmələrə ötürülməsi təmin edilir.

**5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

Filialda idarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü Bakı Dövlət Universitetinin rektorunun 2016-cı il 11 iyul tarixli (protokol № 6) qərarı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun tənzimlənir.

**5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti:**

Filialda İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizmi, idarəetmə orqanlarının fəaliyyətinə dair dövri hesabatların hazırlanması ilə bağlı müvafiq işlər görülməmişdir .

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

Filialda idarəetmə orqanları öz fəaliyyətlərini mövcud Əsasnamə əsasında qurur. İdarəetmə orqanlarının fəaliyyətinə dair illik hesabatlar Direktorluğun iclaslarında müzakirə edilərək müvafiq qaydada qəbul olunur, protokollaşdırılır və hesabatlar aidiyyəti üzrə təqdim olunur.

*5.2. İnsan resurslarının idarə edilməsi*

**5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

Filialda seçkili vəzifələrin tutulması ilə bağlı prosedurlar qanunvericiliyin tələblərinə uyğun keçirilməmişdir. Belə ki, Pedaqoji fənlər kafedrasının müdiri (13.09.2017-ci ildə 1/301 nömrəli qərar) eyni zamanda dekan əvəzi kimi fəaliyyət göstərir. Digər seçkili vəzifələrin müddətinin bitməsinə baxmayaraq seçkilər təşkil olunmamışdır. Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müdirinin ictimai əsaslarla bu vəzifəni icra etdiyi müəyyən edilmişdir.

Aparılmış verifikasiya zamanı aydın olmuşdur ki, hesabat dövründə Ümumi şöbə həm də işəqəbul prosedurunu həyata keçirən struktur bölmədir. Filial üzrə bir çox struktur bölmələrin Əsasnamələri baza universitetin müvafiq strukturlarının Əsasnaməsi ilə eynilik təşkil etdiyi bəlli olmuşdur. İşçi ehtiyaclarına uyğun olaraq əmək resursları bazarının araşdırılması və müvafiq kadrların cəlb edilməsi, insan resursaları və hüquqların planlaşdırılması və işə qəbul üzrə proqram və layihələrlə bağlı fəaliyyət, işçilərin karyera planlaşması prosesinin təşkili, işçilərin ehtiyaclarının öyrənilməsi, məzunlarla işin təşkili və digər istiqamətlər üzrə işlər aparılmamışdır.

**5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

Filialın akademik və inzibati heyəti maliyyə imkanlarına uyğun olsa da, SİP-də nəzərdə tutulan hədəflərə çatmaq üçün əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların elmi-tədqiqat potensialını inkişaf etdirilməsi, əmək bazarının tələblərinin nəzərə alınması və digər məsələlərə dair işlər aparılmamışdır.

**5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması**

Filialda işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq differensial əmək haqqı sistemi mövcud deyildir.

**5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması**

Filialda işçilərin motivasiyası və mükafatlandırılması üzrə vahid sistem mövcud deyildir. Təqdim edilən mükafatlandırma üzrə əmrdə Filialda işçilərin mükafatlandırılması milli və dini bayramlarda, o cümlədən imtahan sessiyasının sonunda aparıldığı müəyyənləşdirilmişdir. Lakin həmin sənəddə mükafatlandırma üzrə prosedurlar dəqiq göstərilməmişdir.

**5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti**

Filialda əməkdaşların fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, onların peşəkarlıq və ixtisas dərəcələrinin uyğunluğunun rəsmiləşdirilməsi, işçilərin attestasiyasıının keçirilməsinin təşkil edilməsi ilə bağlı heç bir təsdiqedici sənədə rast gəlinməmişdir.

Bu sahədə əməkdaşların işdən/Filialdan məmnunluq səviyyəsini araşdıran sorğu da aparılmamışdır.

**5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti**

Hesabat dövrü ərzində Filialın akademik heyətinin öz ixtisas sahələri üzrə ixtisasartırma, təkmilləşdirilmə və digər təlim kurslarında iştirakı haqqında Komissiyaya məlumat təqdim edilməmişdir.

**5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti**

ÖTH-dən aydın olur ki, əməkdaşların ictimai fəallığının artırılması məqsədilə Filialda müxtəlif mövzuda konfranslar, dəyirmi masalar, müsabiqələr, yubileylər, yaradıcılıq gecələri, iməcliklər və s. keçirilir. Bayram və əlamətdar günlərdə əməkdaşlar və tələbələr üçün mədəni-kütləvi tədbirlər təşkil edilir. Sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti barədə "İctimaiyyətlə əlaqələr və informasiya" şöbəsi tərəfindən mütəmadi olaraq məlumatlar paylaşılır.

**5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti**

ÖTH-də inzibati, texniki və köməkçi heyətə işçi qəbulu haqqında heç bir məlumat verilməmişdir. Müsahibə zamanı müvafiq strukturun əməkdaşı bu sahələrdə boş olan vəzifələrin tutulması haqqında müvafiq dövlət orqanlarına və mətbuata məlumat verildiyini bildirdi. Lakin işə qəbulla bağlı qoyulan tələblər heç bir sənəddə öz əksini tapmamışdır.

**5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti**

ÖTH-də struktur bölmələrin illik iş planı əsasında fəaliyyət göstərdiyi vurğulansa da, inzibati, texniki və köməkçi heyət üzvlərinin illik iş planlarının tərtib olunması haqqında heç bir məlumat verilmədiyindən əməkdaşların fəaliyətinin monitorinqinin necə həyata keçirildiyini müəyyən etmək mümkün olmamışdır. Verifikasiya zamanı isə aydın olmuşdur ki, strukturlarda heyətin illik iş planı və hesabatları mövcud olsa da, qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi üçün vahid yanaşma mövcud deyildir.

**5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

İşçilərlə əmək münasibətləri və mülki münasibətlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri gözlənilməklə rəsmiləşdirilir, eləcə də bu münasibətlərə xitam verilir. Əmək müqavilələri, onlarda dəyişikliklərin edilməsi və ya xitam verilməsi Filial tərəfindən müvafiq əmək müqaviləsi bildirişi formasında elektron informasiya sisteminə elektron imza vasitəsilə daxil edilir. Əmək münasibətlərində ayrı-seçkiliyə yol verilmir.

*5.3. Maliyyə resurslarının idarə edilməsi*

**5.3.1 ATM-in maliyyə reurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

Əsasnaməyə uyğun olaraq Filialın əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən, ödənişli təhsildən əldə edilən vəsaitdən, formalaşdırılır. Verifikasiya olunan zaman Filialın maliyyə təminatı məsələlərinin Əsasnaməyə uyğunluğu öz təsdiqini tapmışdır.

**5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi**

Filialda qısa və orta müddətli dövr üçün maliyyə resurslarının planlaşdırılması sistemi mövcuddur. Belə ki, hər il ötən ilin faktiki göstəriciləri nəzərə alınmaqla, yeni büdcə tərtib olunur və müvafiq dövlət qurumlarına təqdim edilir.

**5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti**

SİP-in yeni (2022-ci il) qəbul edilməsini nəzərə alaraq maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlər SİP-ə uyğunlaşdırılmamışdır.

**5.3.4 Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti**

Filialın əlavə maliyyə resurslarının əldə etmək imkanları olduğu halda bu sahədə heç bir iş görülməmişdir.

| Filalın maliyyə təminatı | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Təhsil haqqı istisna olmaqla digər daxil olmaların ümumi daxilolmalara nisbəti | - | - | - | - | - | - | - |
| Ümumi xərclər | 482660,35 | 614132,64 | 1032802,22 | 1104304,25 | 1448052,19 | 19343220,03 | 2301132,62 |
| Müəssisənin ümumi büdcəsi | 139910,68 | 509921,56 | 696290,39 | 1443595,41 | 2239100,73 | 3522880,7 | 4682783,61 |
| Ümumi gəlir | 622571,03 | 124054,2 | 1729092,61 | 2547899,66 | 3687152,92 | 5457200,73 | 6983916,23 |

*Məlumat Filialın mühasibatlığına məxsusdur*.

Bu cədvəldən göründüyü kimi, Filialda əsas daxilolmalar təhsil haqqı fondundandır.

**5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi**

Təqdim edilən hesabatda Filialda maliyyə mənbəyinin yalnız dövlət sifarişi və ödənişli əsaslarla təhsilalanların təhsil haqqları hesabına formalaşdığı bildirilmişdir.

**5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu**

Əsasnaməyə görə Filialın fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilmişdir. Verifikasiya zamanı Mühasibatlıq tərəfindən Filialın Maliyyə vəziyyəti haqqında hesabatlar, Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatlar, Pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar, Xalis aktivlərdə dəyişikliklər haqqında hesabatlar təqdim olunmuşdur.

**5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu**

Filialın Əsasnaməsinin 7.3 bəndinə əsasən Filiala ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək Filialın əsas vəzifə və hüququ olaraq tanınmışdır. Verifikasiya zamanı təqdim olunan maliyyə sənədlərində büdcə-gəlir və xərc smetalarında qeyd olunan istiqamətlər üzrə bu prinsiplərin qorunduğu aydın olmuşdur.

**5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi**

Filial Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq normativlərə uyğun maliyyələşdirilir. Direktor – Filialda mütəxəssis hazırlığının keyfiyyətinə, tədris, elm, tərbiyə, maliyyə-təsərrüfat işlərinin təşkilinə və büdcənin icrasına görə məsuliyyət daşıyır (Əsasnamənin 4.10.1 bəndi), Filialın davamlı fəaliyyəti üçün xərcləri proqnozlaşdırır (Əsasnamənin 4.10.8 bəndi).

Filialın struktur bölməsi olan Mühasibatlıq Filialda həyata keçirilən satınalmaların səmərəliliyinə və bağlanılmış satınalma müqavilələrinin icrasına nəzarət edir. Filialın illik smetalarının icra vəziyyətini təhlil edir, səlahiyyətləri daxilində bu işlərin təşkilinə nəzarət edir.

**5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Filialın mühasibatlığı və baza Universitetin Maliyyə təminat departamenti Filialda satınalamaların həyata keçirilməsinə və bağlanılmış satınalma müqavilələrinin icrasına nəzarət edir. Təqdim olunmuş hesabatlardan aydın olur ki, şöbə il ərzində satınalma ilə bağlı prosedurun müəyyən edilməsi və qanunla icazəsi tələb ounan satınalma prosedurlarını həyata keçirir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi mövcud qanunvericiliyin tələbləri gözlənilməklə (tender və s.), təsdiq edilmiş müqavilə əsasında və müqavilədə təsbit edilmiş "Qiymətlərin razılaşdırılması protokolu"na uyğun həyata keçirilir. Dövlət satınalmaları üzrə vahid internet portalı vasitəsilə müvafiq işləri həyata keçirir. Müvafiq hesabatlar təqdim edir.

**5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

Filial "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir. Filial "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir. Aktivlərinin və öhdəliklərinin inventarizasiyasının aparılması və onların mühasibat uçotu hesablarında düzgün əks etdirilməsini təmin edir.

Malların (iş və xidmətlərin) anbara mədaxil və məxaric sənədlərinin icra edilməsini təmin edir.

**5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

Filial dövri olaraq müvafiq dövlət orqanlarına - Dövlət Vergi Xidməti, Dövlət Statistika Komitəsi, Elm və Təhsil Nazirliyi və s. hesabatlar təqdim edir.

**5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

Filialın Əsasnaməsinə əsasən "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir. Verifikasiya zamanı aydın olmuşdur ki, maliiyyə hesabatlarının dərc olunması həyata keçirilmir. Yeni yaradılacaq rəsmi internet saytında bu tipli hesabatların yayımlanması nəzərdə tutulur.

**5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

Filialda daxili audit şöbəsi fəaliyyət göstərmir.

**5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu**

Son 5 ildə kənar auditin keçirilməsi haqqında məlumat təqdim edilməmişdir.

**5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti**

Filialda maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətləri üzrə təhlillər aparıldığı müəyyən olunmuşdur.

*5.4. İnformasiya idarəetmə sistemi*

**5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu**

**5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti**

**5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu**

**5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti**

**5.4.5 İnformasiya idarəetmə sistemində əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi**

**5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi**

**5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya ilə inteqrasiya səviyyəsi**

**5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti**

Filialda İnformasiya idarəetmə sistemi olmadığından həmin meyar üzrə indikatorları qiymətləndirmək mümkün olmamışdır**.**

*5.5. İctimaiyyətlə əlaqələr*

**5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti**

Filialın rəsmi saytı mövcud deyildir.

**5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilməsi vəziyyəti**

Filialın rəsmi saytı olmadığından indikator üzrə qiymətləndirmə aparmaq mümkün olmamışdır.

**5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti**

Filialın Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsi ictimaiyyətin məlumatlandırlmasını qismən təmin edir. Lakin şöbənin fəaliyyətinin müasir dövrün tələbləri baxımından qurmaq üçün ciddi islahatların aparılmasına ehtiyac vardır (kadr potensialının gücləndirilməsi, İT bacarıqlı gənclərin cəlb edilməsi və s.). ÖTH-də ictimaiyyətin məlumatlandırılmasında əsas əlaqə üsulları kimi BDU-nun www.bsu.edu.az saytı və Filialın BDU-Qazax filialı/BSU-Gazakh Branch facebook səhifəsi göstərilir. Verifikasiya zamanı ictimaiyyətin məlumatlandırılmasında daha çox ənənəvi vasitələrdən (kağız daşıyıcılardan) istifadə olunduğu müəyyən edilmişdir. Eyni zamanda yerli xəbər portalı olan Göyəzən.az internet saytında Filialın ictimai həyatına aid bəzi xəbərlərin yer aldığı bildirildi

**5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti**

Filialın ictimaiyyətin məlumatlandırılması ilə bağlı müvafiq fəaliyyət planı yoxdur.

**5.5.5 ATM-in məlumatlandırılma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanını verməsi vəziyyəti**

Filialın məlumatlandırma fəaliyyətinin müasir dövrün tələbləri səviyyəsində qurulmaması və ya zəif təşkil edilməsi maraqlı tərəflərin onun fəaliyyətinin qiymətləndirilməsinə imkan vermir.

**5.5.6 ATM-in məlumatlandırılma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti**

Filialın məlumatlandırma fəaliyyətinin sisteminin olmaması (saytın fəaliyyət göstərməməsi, sosial şəbəkə hesablarının olmaması və ya zəif fəaliyyət göstərməsi və s.) onun fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyətinin öyrənilməsinə imkan vermir. Filialın məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi işi istiqamətində tədbirlərin icrasına ehtiyacın olduğu yerində baxış müddətində müəyyən edilmişdir.

## 6. İNFRASTRUKTUR

*6.1. Tədris infrastrukturu*

**6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti**

Filialın tədris prosesini təşkil etmək üçün dövlət mülkiyyəti olan bir tədris binası vardır. Binanın ümumi sahəsi 3063 kv.m. Faydalı sahə isə 2169 kv.m-dir. Ümumi auditoriya fondu 1160,5 kv.m-dir. Auditoriyaların sayı 35-dir. Onlardan 7 auditoriya mühazirə, 28 auditoriya isə məşğələ dərsləri üçün nəzərdə tutulmuşdur.Filial üzrə tələbələrin sayı 1875 olduğnu nəzərə alsaq hər tələbə 1.3 kv.m.faydalı sahə düşür. İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 32 otaq olmaqla 638 kv.m.-dir.

**6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti**

Filialın kitabxanası, kitab fonudu üçün ayrılan otaqdan və oxucu zalından ibarətdir. Kitabxana fondunda fənn proqramlarında tövsiyə olunmuş tədris-metodik vəsaitlər və onların nüsxələri mövcud normalara uyğun deyil. Belə ki, Filialın kitabxanasında 7747 ədəd kitab vardır. Onlardan 4628 latın qrafikası ilə çap olunmuşdur. Kitablardan 3652 dərslik və dərs vəsaiti, 3778 bədii ədəbiyyat, 317 monoqrafiya və digər nəşrlərə aiddir. Müsahibə zamanı, bütün ixtisaslar üzrə dərslik və dərs vəsitinin kifayət qədər olmadığı üçün tələbələrin müəllimlərin mühazirə mətnlərindən istifadə edildiyi bildirildi. Eyni zamanda tələbələrin baza universitetin elektron kitabxanasına çıxış imkanı yaradılmışdır ki, bu da tələbələrin dərsliklərə olan tələbatını ödəmək imkanı yaradır. Kitabxanaya I kurs tələbələrinin üzvlüyünün sistemli şəkildə qeydə alınmadığı və mövcud kitab fondunun elektron şəkildə formalaşmadığı yerində baxış zamanı müəyyən edilmişdir.

**6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti**

Filialda kadr hazırlığının aparıldığı ixtisasların xüsusiyyətlərinə uyğun müasir dövrün tələblərinə cavab verən, texniki cəhətdən kifayət qədər yaxşı təchiz olunmuş laboratoriyalar, kabinetlər və tədris bazaları mövcud deyildir.

**6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti**

ÖTH-də Filialda 2 laborotoriyanın (Kimya və biologiya tədris laboratoriyası və Fizika tədris laboratoriyası) olduğu göstərilmişdir. Baxış zamanı həmin laborotoriyaların müasir standartlara cavab verмədyi müəyyən edilmişdir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Filialın ümümi sahəsi 31,7 kvadrat metr olan istehsalat-təcrübə bazası mövcuddur. Lakin həmin baza istehsalat-təcrübəsinin aparılması üçün müvafiq təchizata sahib deyildir.

### 6.1.6 Filialda distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Filialda distant təhsilin təşkili üçün zəruri infrastruktur mövcud deyildir. Gələcək perspektivdə "Blackboard" platformasından istifadə edilməsi məqsəd kimi qarşıya qoyulmuşdur.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

Filialda nəqliyyat xidməti mövcud deyildir.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

Filialın mövcud tədris infrastrukturundan müəllimlər, tələbələr və inzibati heyət bərabərhüquqlu, heç bir məhdudiyyət olmadan istifadə edə bilirlər.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Filialda sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu mövcud deyildir. Misal olaraq, pilləkənlərin kənarında pandusların quraşdırılmadığını qeyd etmək olar.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

Filialın yeni təmir olunmuş 61,7 kv.m sahəsi olan yeməkxanası mövcuddur.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

Filialda yataqxana mövcud deyildir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

Filialda tibbi xidmət fəaliyyət göstərmir.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

Filialda İT xidməti Komputer və informasiya mərkəzi tərəfindən həyata keçirilir. Müsahibə zamanı bildirildi ki, mərkəz Filial əməkdaşlarının İT bacarıqlarının inkişaf etdirilməsi üçün tədbirlərin həyata keçirilməsini təmin edir. Lakin həmin tədbirlərin mütəşəkkil keçirilməsi haqqında məlumat təqdim edilməmişdir.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastrukturundan istifadənin monitorinqi Filialın uyğun struktur bölmələri və Tədris şöbəsi tərəfindən aparılır. Amma bu prosesin dövrü olaraq sistemli aparılması müəyyən edilməmişdir. İnfrastrukturdan istifadənin monitorinqinin nəticələri sistemli analiz edilmir.

*6.2. Elmi-tədqiqat infrastrukturu*

**6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti**

Filialda elmi-tədqiqat və innovasiya mərkəzi fəaliyyət göstərmir. Komputer və informasiya mərkəzi isə elmi-tədqiqat aparmağa imkan vermir.

**6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti**

ÖTH-də Filialda 2 laborotoriyanın **(**Kimya və biologiya tədris laboratoriyası və Fizika tədris laboratoriyası) olduğu göstərilmişdir. Qeyd edilən laboratoriyalar elmi tədqiqatların aparılmasına imkan vermir.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

*7.1. Beynəlmiləlləşmə siyasəti*

**7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti**

**7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti**

**7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti**

**7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti**

**7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti**

**7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

**7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti**

**7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti**

*7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

**7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti**

**7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti**

**7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti**

**7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti**

**7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti**

**7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti**

**7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası**

**7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti**

**7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti**

**7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti**

*7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

**7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti**

**7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti**

**7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti**

**7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti**

*7.4. Beynəlmiləlləşmə performansı*

**7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti**

**7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti**

ÖTH-dən və yerində baxış zamanı məlum oldu ki, Filialın struktur sxemində beynəlxalq əlaqələri koordinasiya edən məsul qurum və ya hər hansı mütəxəssis ştat vahidi mövcud deyildir. Bundan əlavə, ali təhsil müəssisələrinin prioritet sahəsi hesab olunan beynəlmilləşmə ilə bağlı məsələlər Filialın 2022-2030-cu illəri əhatə edən SİP-də öz əksini tapmamış, diqqətdən kənarda qalmışdır. Müsahibə zamanı bu məsələlərin Bakı Dövlət Universiteti tərəfindən tənzimləndiyi qeyd edilmişdir.

Ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiya etdiyi bir zamanda ölkə və region daxilində rəqabətəqabiliyyətliliyini təmin etmək üçün Filialın inistitusional inkişafına, keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət ayrılmalıdır. BDU-nin Filialı kimi beynəlxalq imicinin təşviqi, təhsil proqramlarının beynəlmiləlləşməsi, beynəlxalq akademik mobilliyin artırılması və mövcud potensialın gücləndirilməsi məqsədilə layihələrin icrası, əcnəbi tələbələrin cəlb edilməsi, tədqiqatların beynəlmiləlləşməsi və s. istiqamətlər üzrə işlərin görülməsi tövsiyə edilir.

## Komissiyanın istiqamətlər üzrə təhlili

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | ● SİP-in baza universitetin sənədi əsasında hazırlanması;<br>● SİP-də hədəflər və istiqamətlər konkret şəkildə müəyyənləşdirilməsi;<br>● Təhsil istiqaməti üzrə prioritetlərdə "Blackboard" elektron təhsil sisteminin bütün tədris prosesində tətbiqinə və ali təhsilin hər iki səviyyəsi üzrə tələbə qəbulunun davamlılığına nail olunması;<br>● Tədqiqatçılar və tələbələr üçün ölkədə mövcud olan, eyni zamanda xarici yeni texnologiyaların, müasir laboratoriya avadanlıqlarının və zəruri elmi məlumatların istifadəsinin mümkünlüyünü və əlçatanlığını təmin etmək;<br>● Filialın maddi-texniki bazasının, rəqəmsal infrastrukturunun və köməkçi resurslarının müasirləşdirilməsinə əlavə investisiya qoyuluşunu təmin etmək istiqamətində fəaliyyət; |
| **Zəif tərəflər** | ● SİP-də Filial üzrə GZİT təhlilin aparılmaması;<br>● SİP -in hazırlanması zamanı mövcud imkanların nəzərə alınmaması;<br>● SİP-də müəyyən edilən əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək işlər əks olunmamışdır;<br>● SİP-də fəaliyyətin qiymətləndirilməsi üçün yalnız kəmiyyət göstəriciləri müəyyən edilmişdir;<br>● SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirak etməməsi;<br>● SİP-in icrasının dövri monitorinqinin aparılması mexanizmlərinin müəyyən edilməməsi;<br>● Struktur bölmələrin SİP-in icrası ilə əlaqədar dövri hesabatlarının hazırlanmaması. |
| **İmkanlar** | ● Təhsil və elm üzrə regional hub-a çevrilmək |

| | |
|---|---|
| **Təhdidlər** | ● Əmək bazarı və sənayenin daim dəyişən tələbləri<br>● SİP-in icrasına nəzarəti artırmaq və monitorinqlərin keçirilməsini, hesabatlılığı təmin edilməsi:<br>● Digər regional universitetlərlə rəqabət |
| **Komissiyanın tövsiyəsi** | ● SİP-ə yenidən baxılması və SİP-in hazırlanmasına daxili və xarici maraqlı tərəflərin cəlb edilməsi<br>● SİP-in icrasına nəzarəti artırmaq və monitorinqlərin keçirilməsini, hesabatlılığı təmin edilməsi:<br>● SİP üzrə müəyyən edilmiş hədəflərin icrası üçün qısa, orta və üzünmüddətli fəaliyyət planlarının tərtib edilməsi |

| **2. Keyfiyyət təminatı** | |
|---|---|
| **Güclü tərəflər** | ● Təhsilin keyfiyyətinin daxili təmin olunması sahəsində siyasət sənədi qəbul edilməsi;<br>● Sənəddə keyfiyyətin təmin olunması üçün struktur bölmələr üzrə məsuliyyət bölgüsü aparılması;<br>● Şifahi sorğuların keçirilməsi istiqamətində müəyyən işlər aparılması;<br>● Filialda akademik heyətin açıq dəslərinin qiymətləndirilməsi aparılması;<br>● Tələbələr və onların təhsil nəticələri haqqında məlumatların toplanılması |
| **Zəif tərəflər** | ● Filialda daxili keyfiyyət təminatı üzrə struktur bölmənin olmaması;<br>● Daxili keyfiyyət təminatı sisteminin olmaması və fəaliyyət planının tərtib olunmaması;<br>● Məsul şəxslərin keyfiyyət təminatı sistemi üzrə məlumatlılığının olmaması;<br>● Filialda keyfiyyətə nəzarət və proseslərdə iştirak səviyyəsinin aşağı olması; s<br>● Strukturlararası fəaliyyətin koordinasiya olunmaması;<br>● Filialda keyfiyyət təminatı üzrə sorğuların sistemli aparılmaması;<br>● Keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsi, izlənilməsi və araşdırılması istiqamətində işlərin qənaətbəxş olmaması. |
| **İmkanlar** | ● Filialda daxili keyfiyyət təminatı üzrə struktur bölmənin yaradılması;<br>● Keyfiyyət təminatı bələdçisinin hazırlanması və maraqlı tərəflərin bu prosesə cəlb olunması;<br>● Filialda keyfiyyət təminatı üzrə sorğuların keçirilməsi mexanizmlərinin qurulması; |

| | |
|---|---|
| **Təhdidlər** | • Filialda təlim-tədris sahəsində olduğu kimi digər istiqamətlərdə də görülən işlər haqqında məlumatların sistemli toplanmaması və ya toplanmış məlumatların sistemli emal olunmaması, SİP üzrə müəyyən edilmiş hədəflər istiqamətində dinamikanın izlənilməsinin qeyri mümkünlüyü və s. bu kimi mənfi nəticələrin meydana çıxması; |
| **Komissiyanın tövsiyəsi** | ● Keyfiyyət təminatı üzrə struktur bölmənin yaradılması;<br>● Keyfiyyət Komissiyasının formalaşdırılması;<br>● Keyfiyyət təminatı üzrə fəaliyyətin koordinasiyası edilməsi;<br>● Maraqlı tərəflərin keyfiyyət təminatı sistemində iştirakının təmin edilməsi;<br>● Tələbə məmnuniyyəti və professor-müəllim heyəti arasında müntəzəm sorğularının keçirilməsi;<br>● Təhsil proqramlarının keyfiyyəti ilə bağlı məzunların məmnunluğunun öyrənilməsi;<br>● Sorğuların təşkili və sorğu nəticələrinin təhlil edilməsi; |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | ● Filialda tədrisin baza universitetidə qəbul aparılan ixtisasların tədris proqramları əsasında təşkil olunması;<br>● Əvvəlki təhsil zamanı qazanılmış kreditilər tanınması;<br>● Tədris planları kredit sisteminn tələblərinə uyğun tərtib edilməsi;<br>● Filialda imtahan sessiyalarının təşkili mövcud qanunvericiliyə və müvafiq normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilməsi; |
| **Zəif tərəflər** | ● Tədris baza universitetdə qəbul aparılan ixtisasların tədris proqramları əsasında aparıldığından seçmə fənlər üzrə bölmədə qismən dəyişiklik aparılır;<br>● Tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında maraqlı tərəflərin cəlb edilməməsi;<br>● Sillabuslarda fənnin təlim nəticələri əks olunmaması;<br>● Pedaqoji və istehsalat təcrübəsinin təşkilinə sistemli yanaşmanın olmaması;<br>● Müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə dair tədbirlər həyata keçirilməməsi;<br>● Təlim texniki vasitələrinin sayının azlığı innovativ dərslərin həyata keçirilməsinə imkan verməməsi; |

| | |
|---|---|
| | ● Müəllimlərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün kurslara, treninqlərə cəlb olunmaması tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadəyə şərait yaratmaması;<br>● Tələbərin ehtiyaclarının müəyyən edilməsi və qarşılanması üçün sorğuların keçirilməməsi. |
| **İmkanlar** | 1. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında işəgötürənlərin iştirak vasitəsilə məzunların işlə təmin olunması sahəsində problemlərin aradan qaldırılması;<br>• Müəllimlərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün treninqlərə cəlb olunması vasitəsilə tədrisin keyfiyyətinin yüksəldilməsi; |
| **Təhdidlər** | • Standartlara cavab verməyən təlim və tədris prosesi;<br>• Təhsil proqramlarında müəyyən edilən tələblərin ödənilməməsi; |
| **Komissiyanın tövsiyəsi** | ● Tələbə qəbulu planının hazırlanmasında işəgötürənlərin cəlb olunması;<br>● Qəbul planın optimal hazırlanması;<br>● Məzunların işlə təmin olunmasında əlavə imkanların yaradılması;<br>● Yerli əmək bazarının tələblərinin nəzərə alaraq seçmə fənlərin Filial tərəfindən müəyyənləşdirilməsi;<br>● Əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması üçün treninqlərə cəlb olunması;<br>● Təhsil proqramlarının müntəzəm olaraq monitorinq və qiymətləndirilməsinin aparılmasını və müvafiq maraqlı tərəflərin (o cümlədən tələbələr) bu proseslərə cəlb edilməsi;<br>● Filialda təhsil səviyyəsini beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə əməkdaşların müasir təlim metod və üsulları, İKT və s. təlimlərdə iştiraklarının təmin edilməsi;<br>● Sillabusların təkmilləşdirilməsi;<br>● Filialda bakalavriat və magistratura səviyyələrində tədris olunan bəzi fənlər təkrarlandığından, yeni fənn proqramları və sillabusların hazırlanmasında bu halların aradan qaldırılmasını, onların təhsil səviyyəsi üçün nəzərdə tutulmuş təlim nəticələri və kompetensiyalara uyğunlaşdırılması;<br>● Filialda təhsilalanların müəllim və fənn seçimi imkanının olmadığını nəzərə alaraq, seçmə fənlərin və müəllimlərin təhsilalanlar tərəfindən seçilməsi imkanı yaradılması;.<br>● Tyutor xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi;<br>● Tələbələrin yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması və gücləndirilməsini, gənclərin elmi, texnoloji, yaradıcı və tətbiqi fəaliyyətə cəlb olunması formaları inkişaf etdirilməsi;<br>● Tədris və təlim prosesində müasir tədris materiallarından, innovativ, yaradıcı və interaktiv metodlardan və təhsil texnologiyalarından istifadə edilməsi istiqamətində işlər aparılması; |

| | |
|---|---|
| | ● Məzunlarla davamlı əlaqə sistemin qurulması Karyera mərkəzinin yaradılması. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | ● Filialının 2022-2030-cu illər üzrə elmi-tədqiqat Strategiyasının mövcud olması;<br>● İl ərzində 3-dən artıq yerli və beynəlxalq indeksli jurnallarda məqaləsi dərc olunmuş və tədris-metodiki və monoqrafiyası nəşr olunan professor-müəllim heyətinə universitet rəhbərliyi tərəfindən stimullaşdırıcı tədbirin görülməsi;<br>● Elmi-tədqiqat xarakterli tədbirlərdə əsasən Azərbaycanın digər elm və ali təhsil müəssisələrindən tədqiqatçılar iştirak etməsi və müştərək konfrans materiallarının nəşr olunması;<br>● Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması;<br>● Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmələrin olması; |
| **Zəif tərəflər** | ● Filialın elmi-tədqiqat strategiyası əsasında fəaliyyət planının və təşviqat mexanizminin olmaması;<br>● Fakültə, kafedraların və maraqlı tərəflərin elmi-tədqiqat sahəsində Strategiyanın hazırlanmasında iştirak etməməsi və bu barədə məlumatsızlıq;<br>● Elmi-tədqiqat işləri üçün büdcədə heç bir vəsaitin nəzərdə tutulmaması;<br>● Yerli, xarici elm və təhsil müəssisələrinin birgə layihələrdə iştirak etməməsi;<br>● Beynəlxalq standartlara cavab verən və rəqabətədavamlı tədqiqatların aparılmaması, respublikanın ali məktəb və mərkəzləri ilə, o cümlədən beynəxalq elmi təşkilatlarla elm və innovasiyalar sahəsində əlaqələrin yaradılmaması;<br>● Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığın təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olmaması;<br>● Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların zəif iştirakı;<br>● Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılma mexanizminin olmaması; |

| | |
|---|---|
| | ● İnistitusional əməkdaşlığ (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası  və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin olmaması;<br>● Müxtəlif elmi müəssisə və təşkilatlar arasında tədqiqat sahəsində əməkdaşlıq əlaqələri və hər hansı birgə tədqiqat proqramının həyata keçirilməməsi;<br>● Tədqiqat işlərinin nəticələrindən mühazirə və seminarlarda istifadə olunmaması, mövzu ilə əlaqəli məqalələr, tədqiqat işlərinin və s. əlavə tədris materialı kimi tələbələrə yönləndirilməməsi;<br>● Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlər, seminarlar və müxtəlif sistematik tədbirlərin həyata keçirilməməsi;<br>● Elmi-tədqiqat siyasəti, onun məqsədlərini və prioritet tədqiqat sahələrini və istiqamətlərini, təşviq mexazimlərini və tədqiqat fəaliyyətinin idarə olunmasını özündə əks etdirən sənədin olmaması;<br>● Filialda antiplagiat və akademik dürüstlük  siyasətinin mövcud olmaması;<br>● Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olmaması;<br>● Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirin olmaması;<br>● Birgə tədqiqat proqramlarının olmaması;<br>● Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak etməməsi;<br>● Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksində artım dinamikasının olmaması;<br>● Magistratura səviyyəsində bəzi ixtisasların tədris planlarında tədqiqat yönümlü fənlərin nəzərə alınmaması.<br>● Filialda tədqiqat materiallarını dərc etdirilməsi üçün dövri-elmi nəşrlərinin olması; |
| **Təhdidlər** | ● Filialın  elmi-tədqiqat strategiyası üzrə qısa, orta və uzunmüddətli fəaliyyət planlarının mövcud olmamasının müyyən edilmiş hədəflər istiqamətində görülmüş işlərin izlənlənilməsinə göstərdiyi təsir;<br>● Elmmetrik bazalar çıxışın mövcud olmamasından dolayı drəc edilən tədqiqatların müvafiq elmi tendensiyalarla ayaqlaşmaması;<br>● Elmi-tədqiqat fəaliyyətinin sistemli qiymətləndirilməsi və motivasiyası mexanizminin mövcud olmamasının tədqiqatların keyfiyyətinə və müsbət dinamikasına təsiri ; |
| **Komissiyanın tövsiyəsi** | 1. Elmi-tədqiqat strategiyasına müvafiq olaraq fəaliyyət planın və təşviqat mexanizminin hazırlanması;<br>2. Elmi-tədqiqat strategiyasına yenidən baxılması və prosesdə maraqlı tərəflərin iştirakının təmin edilməsi;<br>3. Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasını daha da səmərəli həyata keçirilməsi üçün tələbələrin müxtəlif beynəlxalq layihələr çərçivəsində tədqiqat yönümlü start-up layihələrinə cəlb edilməsi, magistrantların universitetdə aparılan elmi tədqiqat işləri və qrant layihələrinə cəlb edilməsi, xarici ölkələrin nüfuzlu universitetlərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığına cəlb edilməsi;<br>4. Filial bakalavriat və magistratura  səviyyələri üzrə tədris prosesinin təşkilinə elmlər doktoru və professorları cəlb etmək üçün mexanizmin hazırlanması;<br>5. Nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlər hazırlamaq, əhatəlilik və hamı üçün əlçatanlığını təmin etmək; |

| | |
|---|---|
| | 6. Professor-müəllim heyətinin Google Scholar bazasında şəxsi profilləri yaradılması və ORCID identifikasiya nömrəsi alınması;<br>7. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak, bu sahədə fəaliyyəti daha intensivləşdirmək;<br>8. İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin yaradılması;<br>9. Beynəlxalq standartlara cavab verən və rəqabətədavamlı tədqiqatlar aparmaq, respublikanın ali məktəb və mərkəzləri ilə, o cümlədən beynəxalq elmi təşkilatlarla elm və innovasiyalar sahəsində sıx əlaqələr yaratmaq;<br>10. Nüfüzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması üçün həmin jurnalın impakt-faktoru səviyyəsindən asılı olaraq, universitet tərəfindən birdədəfəlik maddi mükafatın verilməsi;<br>11. Beynəlxalq elmi bazalara girişin təmin edilməsi üçün memarandumların imzalaması və müxtəlif nəşriyyatlarla üzvlük ilə bağlı razılıqlar əldə edilməsi;<br>12. Magistartura səviyyəsindəki bütün ixtisaslarda tədqiqat yönümlü fənlərin tədris olunması;<br>13. Tədqiqat işlərinin nəticələrindən mühazirə və seminarlarda istifadə olunması, mövzu ilə əlaqəli məqalələr, tədqiqat işlərinin və s. əlavə tədris materialı kimi tələbələrə yönləndirilməsi;<br>14. Filial əməkdaşlarının doktorantura proqramlarının təşviq edilməsi ilə bağlı xüsusi bir mexanizm yaradılması. |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | ● İdarəetmə sistemində ictimai təşkilatların, tələbə təşkilatların üzvləri təmsil olunması;<br>● Əsasnaməyə uyğun olaraq idarəetmədə vəzifə və məsuliyyətlər bölgüsünün aparılması; |
| **Zəif tərəflər** | ● Idarəetmə orqanlarında işəgötürənlərin nümayəndələrinin iştirak etməməsi;<br>● İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın ənənəvi (kağız daşıyıcıda) üsulla reallaşdırılması qərarların operativ qəbul olmasına mane olur;<br>● Qəbul edilən qərarlar haqqında ictimaiyyətin məlumatlandırılması imkanlarının məhdud olması;<br>● İdarəetmə strukturunun çevik olmaması;<br>● İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqinin və qiymətləndirilməsi mexanizminin işlək olmaması; |

| | |
|---|---|
| | ● Filial üzrə nomenklatur siyahının təsdiqlənməməsi;<br>● Differensial əmək haqqı sisteminin mövcud olmaması;<br>● İşçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb olunma sisteminin formalaşdırılmaması. |
| **İmkanlar** | • İdarəetmə strukturunda köklü islahatların aparılması vasitəsilə yeni fakültənin, kafedraların, keyfiyyət təminatı üzrə şöbənin və digər struktur bölmələrin yaradılması tədris və digər istiqamətlərdə daha keyfiyyət əsaslı və nəticəyönümlü fəaliyyət imkanı; |
| **Təhdidlər** | • SİP üzrə müəyyən edilmiş hədəflərin icra olunmaması<br>• Filial üzrə idarəetmənin maraqlı tərəflərin gözləntiləri ilə uyğunsuzluq təşkil etməsi; |
| **Komissiyanın tövsiyəsi** | ● Filialda struktur dəyişikliyi aparılması;<br>● Fakültə və kafedraların yenidən formalaşdırılması;<br>● Mövcud kadr potensialını nəzərə alaraq ali təhsilin həm bakalavriat, həm də magistratura səviyyələri üzrə tələbə qəbulu planının optimal formalaşdırılması;<br>● İdarəetmə orqanında  (elmi-şura və ya direktoryanı şura) maraqlı tərəflərin iştirakının təmin edilməsi;<br>● Qərarvermə proseslərinə daha çox maraqlı tərəflərin cəlb edilməsi və təhsilalanların Filialın idarə edilməsində, tədris prosesinin səmərəli təşkilində iştirakının artırılması;<br>● Filialın struktur bölmələri arasında qarşılıqlı əlaqənin (daxili kommunikasiya) və digər müəssisə və təşkilatlarla əməkdaşlığın (xarici kommunikasiya) gücləndirilməsi; |

| 6. İnfrastruktur | |
|---|---|
| **Güclü tərəflər** | ● Filialın kitabxanası baza universitetin elektron kitabxanasına koordinasiya edilmişdir. |
| **Zəif tərəflər** | ● Maddi-texniki baza zəif olması;<br>● Elmi tədqiqat və innovasiya mərkəzinin olmaması;<br>● Müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalar mövcud olmaması;<br>● Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış infrastrukturun olmaması;<br>● Kitabxana fonduda qəbul aparılan ixtisaslar üzrə dərslik və dərs vəsaiti azlıq təkil etməsi;<br>● Auditoriya otaqlarının sayının kifayət qədər olmaması;<br>● İstehsalat-təcrübə bazasının olmaması;<br>● İT resurslarının kifayət qədər olmaması;<br>● Əməkdaşların İT bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlərin təşkil edilməməsi;<br>● Tibbi və psxioloji xidmətin olmaması; |
| **İmkanlar** | ● Yeni kampus tikintisi üçün ərazinin ayrılması ;<br>● Baza universitetdə mövcud olan Tədqiqat və innovasiya mərkəzlərinin analoqunun Filialda yardılması;<br>● Baza universitetdə yeni nəşr olunmuş dərslik və dərs vəsaitlərinin Filial kitabxanasına daxil edilməsi və tələbələrin istifadəsinə verilməsi;<br>● Tədris binasının strukturunda sağlamlıq imkanları məhdud olan şəxslər üçün uyğunlaşdırılmanın aparılması; |
| **Təhdidlər** | • İnfrastrukturun inkluziv olmamasının müvafiq reputasiyaya göstərəcəyi təsir;<br>• Uzunmüddətli perspektivdə rəqabətədavamlı tədqiqatların aparılma imkanlarının məhdudluğu; |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | ● Müasir tipli kampus tikintinsi;<br>● Movcud laboratoriyaları müasir avadanlıqlara təchiz olunması üçün maliyyə müvafiq tədbirlərin görülməsi;<br>● İnkluzv infrastrukturun formalaşdırılması; |

| 7. **Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | • Beynəlmiləlləşmə siyasətini həyata keçirmək əlverişli regional coğrafi mövqe. |
| **Zəif tərəflər** | ● Beynəlxalq əlaqələri kordinasiya edən strukturun və məsul şəxslərin olmaması;<br>● Beynəlmiləlləşmə Siyasəti sənədinin mövcud olmaması; |
| **İmkanlar** | 1. Strukturun hazırlanması;<br>2. Mübadilə proqramlarının icrası;<br>3. Müvafiq reytinqlərdə irəliləmə; |
| **Təhdidlər** | ● Beynəlxalq reytinqlərdə yer almama;<br>● Filialın beynəlmiləl reputasiyasına təsir; |
| **Komissiyanın tövsiyəsi** | ● Filialın inistitusional inkişafında, keyfiyyətinin yüksəldilməsində, ölkə, region daxilində rəqabətəqabiliyyətliliyini təmin etmək üçün bu beynəlmilləşmə siyasətinə xüsusi diqqət ayrılmalı;<br>● BDU-nin Filialı kimi beynəlxalq imicinin təşviqi, təhsil proqramlarının beynəlmiləlləşməsi, beynəlxalq akademik mobilliyin inkişafı və potensialın gücləndirilməsi istiqamətində layihələrin icrası, əcnəbi tələbələrin cəlbi, tədqiqatların beynəlmiləlləşməsi istiqamətlərində işlər aparmalı; |

| | |
|---|---|
| | • Fililda Beynəlmiləlləşmə siyasəti sənədi hazırlanmalı;<br>• Filialda mübadilə proqramlarına  təşviq prosesi  ilə bağlı işlər görülməli;<br>• Filial beynəlxalq akademik mobilliyin inkişafı və potensialın gücləndirilməsi istiqamətində layihələrin icrasına qoşulmalı, Türkiyənin ali təhsil müəssisələri ilə ikitərəfli əməkdaşlıqda işləmək imkanlarını düşünməlidir;<br>• Filialda əcnəbi təhsilalanlar cəlb olunması üçün təşviqat işləri aparmalı;<br>• Əcnəbi tələbələrin cəlbi məqsədilə Filial  ölkədaxili və ölkəxarici beynəlxalq təhsil sərgilərində iştirak etməli;<br>• Fililala beynəlxalq akademik heyətin cəlb olunma mexanizmi üzərində işləməli;<br>• Filial beynəlxalq təhsil şəbəkəsi və beynəlxalq təhsil təşkilatları ilə əlaqələr qurmalı; |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 3; Keyfiyyət təminatı istiqaməti üzrə 3; Təlim və tədris istiqaməti üzrə 14; Elmi tədqiqat istiqaməti üzrə 14; İdarəetmə istiqaməti üzrə 6; İnfrastruktur istiqaməti üzrə 3; Beynəlmiləlləşmə istiqaməti üzrə 9 tövsiyə olmaqla, ümumilikdə 52 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin BDU-nun Qazax filialı tərəfindən həyata keçirilməsini məqsədəuyğun hesab edilir:

- ❖ Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 3 (3) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunsun (TKTA ilə razılaşdırılmaqla);

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ❖ ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, BDU-nun Qazax filialının fəaliyyəti Komissiya tərəfindən Qaydalara uyğun olaraq həm istiqamətlər, həm də meyarlar üzrə “Uyğun deyil” hesab edilmişdir;
- ❖ Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Komissiya qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 (iki) il üçün uzadılması və BDU-nun Qazax filialının 1 (bir) ildən sonra təkrar akkreditasiya olunması, həmçinin, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək təhsil müəssisəsində kadr hazırlığı aparılan təhsil proqramlarına təhsilalanların qəbulunun dayandırılmasını məqsədəuyğun hesab edir.